Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

10 SENTYABR 2019-cu il

№ 159 (4057)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


## AVROPA ÖLKƏLƏRİNDƏN ERMƏNİLƏRİN KÜTLƏVİ DEPORTASİYASI ERMƏNİSTAN ÜÇÜN CİDDİ PROBLEMƏ ÇEVRİLİR...

səh. 8


Azərbaycan Qarabağda antiterror əməliyyatlarına start verə bilər — səh. 9

İşğal olunmuş Azərbaycan torpaqlarında Ermənistan yeni məskunlaşdırma planına başlayır... — səh. 3

Rusiya Paşinyanın təqib etdiyi daha bir eks-naziri aşkar siyasi himayə altına aldı — səh. 8

Azərbaycanın nəqliyyat infrastrukturuna Avropanın ehtiyacı daha da artır — səh. 10

Gəncənin mərkəzində Əhməd Cavadın barelyefi var idi, indi yoxdur... — səh. 12

Aşura mərasimlərinin ifrat radikal adətlərdən təmizlənməsi cəmiyyətin tələbinə çevrilməyə başlayır... — səh. 11

Polisin jesti Bakıda unudulmuş bir yol problemini gündəmə gətirdi... — səh. 13

Tələbə şəhərciyinin Bakının hansı hissəsində tikilməsi məqsədəuyğundur? — səh. 15




## Paşinyan pul gözləyirdi, Rusiyada erməni biznesmenlər onun özünə qarşı birləşir...

səh. 6



### Eks Azərbaycan nazirləri radikal söyüşçülərin maliyyələşdirilməsi ittihamına hələlik susur...

səh. 5



### ABŞ-ın Ermənistana verdiyi minatəmizləyən qurğular Suriyada işləyir - yeni beynəlxalq qalmaqal...

səh. 6

### Türkiyənin nüvə silahı perspektivi - Qafqazda güc amilinin radikal şəkildə dəyişməsi...

səh. 7

səh. 2

Əli Həsənov iqtidarın dövlətçiliyə xidmət edən istənilən qrup və şəxslə əməkdaşlığa açıq olduğunu bəyan etdi



səh. 3

Əli Əhmədov Tahir Rzayevin və Eldar İbrahimovun müxalifət barədə etimadsız fikirlərinin YAP-la heç bir əlaqəsinin olmadığını dedi...



səh. 4

Vidadi Muradovdan AXC hakimiyyətinə sərt ittiham - "Qədim xalçalarımız məhz onların dövründə ölkədən çıxarılıb..."



səh. 5

Paşinyan ABŞ-da erməni diasporu ilə 22 sentyabr görüşünün üstündə niyə bu qədər əsir...



səh. 14

Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması üçün ianə fondu təklifi...



# Əli Həsənov iqtidarın dövlətçiliyə xidmət edən istənilən qrup və şəxslə əməkdaşlığa açıq olduğunu bəyan etdi

**Məlumdur ki, Milli Məclisin komitə sədri, Yeni Azərbaycan Partiyasının rəhbərliyində təmsil olunan Eldar İbrahimovun adından yayılan açıqlama sosial şəbəkələrdə və ictimai rəydə müəyyən anlaşılmazlığa səbəb olduğundan, Prezidentin köməkçisi, şöbə müdiri əli Həsənov mətbuat üçün xüsusi açıqlama ilə çıxış edib.**

**Əli Həsənov deyib:**



"Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, həm də YAP rəhbərliyində təmsil olunan şəxs kimi bəyan edirəm ki, həm partiyamızın, həm də mövcud iqtidarın bu məsələyə münasibəti ümummilli lider, dövlətimizin və partiyamızın qurucusu Heydər Əliyev tərəfindən müəyyən edilmiş və bu gün də dəyişməz olaraq qalır.

Xatırladıram ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan ziyalılarının 1992-ci ildə mətbuat vasitəsilə ona ünvanladığı müraciətinə verdiyi cavab yeni siyasi hərəkatın və bu hərəkatın avanqard qüvvəsi olan YAP-ın manifesti olaraq qəbul edilmiş və həmin manifestdə ifadə olunmuş prinsip və meyarlar bu gün də siyasi fəaliyyətimizin əsas kredosunu təşkil etməkdədir. Heydər Əliyevin ziyalılara 1992-ci ildə ünvanlandığaı həmin müraciət, əslində sadəcə yeni bir siyasi partiyanın deyil, quruculuğuna başladığımız müstəqil dövlətin gələcək siyasi-ideoloji proqramı idi.

Müraciətdə ümummilli lider Azərbaycanın bütün sağlam qüvvələrini vahid dövlətçilik və azərbaycançılıq ideyaları ətrafında birləşərək gənc, müstəqil və yeni Azərbaycan dövlətinin quruculuğuna öz töhfəsini verməyə səsləyirdi.

Hakimiyyətdə olduğu bütün müddət ərzində ümummilli lider həmişə birlik və həmrəylik ideyasına sadiq qalmış, ölkədə vətəndaş sülhü, mili birlik naminə, Azərbaycan dövlətçiliyinə xidmət etmək istəyən, hər hansı idarəçilik və intellektual keyfiyyətləri olan insanların YAP-da və YAP-ın qurduğu iqtidar komandasında təmsil olunmasına şərait yaratmışdır. Azərbaycan tarixində həm də, senzuranı ləğv etmiş rəhbər kimi ümummilli lider fərqli siyasi qüvvələrin parlamentdə birgə təmsilçiliyini, siyasi plüralizm və söz azadlığını müasir inkişafın labüd bir prinsipi olaraq qəbul etmiş, ümummilli məsələlərin siyasi opponentlərlə birgə müzakirəsini, bütün məsələlərin həlli naminə hər kəslə açıq dialoqu və əməkdaşlığı vacib saymışdır.

Belə dövlətçi-azərbaycançı yanaşma, milli həmrəyliyə sədaqət ümummilli liderin siyasi irsinin davamçısı Prezident İlham Əliyevin hakimiyyəti dövründə də ardıcıl olaraq davam etdirilir. İlham Əliyev ilk dəfə prezident seçildiyi 2003-cü ildə səsləndirdiyi "mən bütün azərbaycanlıların prezidentiyəm" açıqlaması ilə həmin prinsiplərin onun üçün də dəyişməz olduğunu ortaya qoymuşdur.

Bir daha qeyd edirəm ki, bu prinsiplər dəyişməzdir, Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə dialoqa və əməkdaşlığa açıqdır, öz siyasi rəqiblərini düşmən hesab etmir və onlarla ümummilli məsələlərlə bağlı müzakirə və əməkdaşlığı məqbul sayır. Eldar İbrahimovun adından yayılmış məlum fikirlər isə YAP-ın və İlham Əliyev iqtidarının mövqeyini əks etdirmir".

## Azərbaycan XİN Paşinyanın 6 avqust Xankəndi mitinqində havaya pülədiyi bir yalanı da çıxardı...

*Dağlıq Qarabağda keçirilən tədbirdə heç bir BƏƏ vətəndaşı iştirak etməyib*

**Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində keçirilmiş "7-ci erməni oyunları"nda heç bir BƏƏ vətəndaşı iştirak etməyib. Bu barədə "Trend"ə Xarici İşlər Nazirliyindən (XİN) verilən məlumatda deyilir.**



Məlumatda bildirilir ki, Ermənistanın Baş naziri Nikol Paşinyan 6 avqust 2019-cu il tarixində Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində keçirilmiş "7-ci erməni oyunları"nın açılış mərasimində çıxışı zamanı sözügedən oyunlarda ilk dəfə olaraq bəzi ölkələrin, o cümlədən Birləşmiş Ərəb Əmirliklərinin də iştirak etdiyini qeyd etmişdi:

"İlk dəfə deyil ki, Ermənistan rəsmilərinin həqiqəti əks etdirməyən bəyanatları ilə üzləşirik. Qeyd etdiyiniz məsələ ilə bağlı ölkəmizin Birləşmiş Ərəb Əmirliklərindəki (BƏƏ) səfirliyi bu ölkənin Xarici İşlər Nazirliyinə nota ünvanlayıb və cavab notasında BƏƏ XİN-i bildirib ki, Dağlıq Qarabağ ərazisində keçirilən tədbirdə heç bir BƏƏ vətəndaşı iştirak etməyib. Göründüyü kimi, Ermənistan tərəfi həqiqətə uyğun olmayan məlumatları məqsədyönlü şəkildə yayaraq, qanunsuz separatçı rejimin guya ki, "tanınması" görüntüsünü yaratmaq istəyir. Öz növbəsində, bütün bu kimi cəhdlər sonda yayılan yalan məlumatların ifşası ilə nəticələnir".

# Tural Gəncəliyev Qarabağ xuntasının addımını tam qanunsuz və seçki adına böyük təhqir adlandırdı

**Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının (DQBAİ) idarə heyətinin sədri Tural Gəncəliyev işğal edilmiş ərazilərimizdə keçirilmiş "yerli özünüidarəetmə orqanlarına seçkilər"lə əlaqədar bəyanat yayıb.**



"Trend"in məlumatına görə, bəyanatda deyilir: "Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağ bölgəsində 8 sentyabr 2019-cu il tarixində "yerli özünüidarəetmə orqanlarına seçkilər" adı altında növbəti "seçki şousu" təşkil edilmişdir. Reallıq hissini itirmiş təcavüzkar Ermənistan və əlaltısı olan cinayətkar Qarabağ xuntasının atdığı bu addım tam qanunsuzdur, heç bir hüquqi əsası yoxdur və demokratiya, seçki adına böyük bir təhqirdir.

Qondarma xuntanın saxta "rəhbərləri" olan Bako Saakyan, Aşot Qulyan və onların ətrafındakı digər demokratiya "əzabkeşləri"nə bildirirəm ki, onların demokratiya pərdəsi altında gizlənmək niyyətləri istehza doğurur və Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyi və etnik təmizləmənin həyata keçirildiyi bir şəraitdə bu "seçkilər" nəticəsi beynəlxalq ictimaiyyət tərəfindən tanınmayan, eləcə də təcavüzkarı növbəti dəfə ifşa edən bir şoudur.

Əslində, işğalçı Ermənistan və qanlı xunta belə"seçkilər" keçirməklə beynəlxalq ictimaiyyəti deyil, yalnız özü-özünü aldatmaqla məşğul olur. Saxta "seçkilər" həmçinin Ermənistan hakimiyyəti və qondarma rejim arasında ixtilafların mövcudluğunu bir daha açıq şəkildə büruzə verdi. Bundan isə əziyyət çəkən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə bərabər, həm də elə erməni icmasıdır. Tam əminəm ki, Dağlıq Qarabağda yaşayan ermənilər, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri bərpa olunduqdan sonra geriyə dönəcək azərbaycanlılarla birlikdə ölkəmizin konstitusiyası və bələdiyyələr haqqında qanunlarına uyğun olaraq yerli özünüidarəetmə orqanlarına keçiriləcək qanuni seçkilərdə iştirak edəcək".

# Azərbaycanda unun zənginləşdirilməsinə başlanır

**Milli Məclisin deputatı Musa Quliyev ümid edir ki, il ərzində unun zənginləşdirilməsi haqqında qanun layihəsi qəbul olunacaq.**

"Cari ilin payızında qanun layihəsi Səhiyyə Komitəsinin müzakirəsinə çıxarılacaq. Ümid edirəm ki, ilin sonunadək bu istiqamətdə konkret nəticələr əldə edəcəyik və il ərzində qanun qəbul edəcəyik", - Quliyev bazar ertəsi "Unun səmərəli zənginləşdirilməsi üzrə potensialın artırılması" mövzusunda regional seminarda çıxışı zamanı bildirib.

Öz növbəsində, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli jurnalistlərə bildirib ki, unun zənginləşdirilməsi məsələsi aktualdır, çünki uşaq və qadınlar arasında dəmir çatışmazlığı ilə bağlı statistik göstəricilər yüksəkdir.



"Bu çox aktual məsələdir. Azərbaycanda 5 yaşadək uşaqların 15%-i dəmir çatışmazlığı, həmin kateqoriyadan uşaqların 20%-i isə - anemiyadan əziyyət çəkir. Təəssüflə qeyd etməliyəm ki, qadınlarda dəmir çatışmazlığı göstəricisi 34%-dən çoxdur. Həmçinin, qadınların 38%-i anemiyadan əziyyət çəkir. Qeyd etmək lazımdır ki, hamilə qadınların 40%-i də anemiyadan əziyyət çəkir. Qeyd olunan problemlər yeni doğulan körpələrdə fiziki və əqli inkişafda qüsurlarla nəticələnə bilər", - o vurğulayıb.

Bununla əlaqədar, Təhməzlinin fikrincə, qidanın, xüsusilə unun zənginləşdirilməsi qida təhlükəsizliyi nöqteyi-nəzərindən aktual məsələdir.

**Baş** **nazirin müavini, YAP-ın sədr müavini - İcra katibi Əli Əhmədovun "Trend"ə müsahibəsi:**

# Əli Əhmədov Tahir Rzayevin və Eldar İbrahimovun müxalifət barədə etimadsız fikirlərinin YAP-la heç bir əlaqəsinin olmadığını dedi...



**- Əli müəllim, son dövrlərin əhəmiyyətli siyasi meyllərindən biri geniş spektrli siyasi qüvvələrin Prezident İlham Əliyevin yürütdüyü siyasəti dəstəkləməsindən ibarətdir. Bunun səbəblərini Siz nədə görürsünüz?**

- Azərbaycanın inkişafı, uğurlarımız, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində atılan möhtəşəm addımlar göz qabağındadır. İnsanlar Prezident İlham Əliyevin siyasətini, onun nəticələrini yüksək qiymətləndirir. Biz bunu əhalinin bütün təbəqələrinin davranışında və baxışlarında hiss edirik. Hesab edirəm ki, dediyiniz geniş spektrli siyasi qüvvələrin hökümətin siyasətini dəstəkləməsi ilk növbədə bununla əlaqədardır. Onlar bununla dövləti, dövlətçiliyi partiya maraqlarından üstün tutduqlarını nümayiş etdirirlər. Mahiyyət etibarilə, Yeni Azərbaycan Partiyası onlarla siyasi rəqib olsa da, dövlətçilik maraqları naminə vahid mövqe nümayiş etdirilməsini alqışlayırıq.

Başqa bir səbəbi də vurğulamaq olar. Prezident İlham Əliyevin dövlət maraqlarının ən yüksək səviyyədə ifadə olunmasına və həyata keçirilməsinə yönəldilmiş siyasəti eyni zamanda həmin maraqlar naminə bütün siyasi qüvvələrin birliyini, dialoqunu və əməkdaşlığını həm nəzərdə tutur, həm də mümkün edir. Hakimiyyət milli maraqlar naminə konstruktiv mövqedə olan siyasi partiyaların vahid mövqeyinin formalaşmasını alqışlayır və bu zəmində əməkdaşlığa hazır olduğunu bildirir. Yaxşı haldır ki, siyasi partiyaların böyük bir qismi dediyim bu xətti dəstəkləyir və adekvat cavab verir. Nəticədə müxtəlif siyasi partiyaların ümummilli məsələlərdə vahid mövqeyinin yaranması, səmərəli əməkdaşlığı sahəsində ciddi irəliləyişlər əldə edilmişdir.

**- Yeni Azərbaycan Partiyasının bir sıra tanınmış simaları milli maraqlar naminə hakimiyyətlə əməkdaşlıq mövqeyində olan partiyaları, onların rəhbərlərini yumşaq şəkildə desək, qeyri-səmimilikdə suçlayır, onları hətta düşmən adlandırmaqdan belə çəkinmirlər. Deputatlar Eldar İbrahimovun və Tahir Rzayevin bu məzmunda verdiyi müsahibələr partiyanızın mövqeyidir, yoxsa onların şəxsi mövqeyi?**

- Mən qaldırdığınız məsələ ilə əlaqədar partiyamızın mövqeyini yuxarıda bildirdim. Bu gün ölkəmizdə həyata keçirilən siyasətdə milli birlik, milli həmrəylik ideyası mühüm yer tutur. Biz bunu sadəcə bəyanat kimi deyil, real siyasət olaraq qəbul edir və həyata keçirilməsi naminə real addımlar atırıq. Həmin fundamental dəyərlər naminə bütün insanların, siyasətçilərin, partiyaların və ya ictimai təşkilatların birləşməsinə nail olmağa çalışmağımız əsas vəzifələrdəndir. Dövlətçilik naminə əməkdaşlıq etdiyimiz hər kəsə və hər bir siyasi partiyaya hörmətlə yanaşırıq, onlara vətənini və dövlətini ürəkdən sevən insanlar kimi baxırıq. Düşünürəm ki, onları qeyri-səmimilikdə suçlamağa heç bir əsas yoxdur və partiyamız kiməsə belə bir səlahiyyət verməyib. Bu gün Milli Məclisdə təmsil olunan partiyaların nümayəndələri xalqın elçisidir, onun səsi ilə millət vəkili mandatını qazanıb. Hakim partiya kimi məmnunluğumuzu ifadə etmək istəyirəm ki, xalqın etimadı ilə Milli Məclisdə təmsil olunan ayrı-ayrı partiyaların nümayəndələri ümummulli məsələlərdə, islahatların həyata keçirilməsində Prezident İlham Əliyevi dəstəkləyir. Biz buna İlham Əliyevin yürütdüyü siyasətin bütün xalq tərəfindən dəstəklənməsinin daha bir ifadəsi kimi yanaşırıq. Bu, həqiqətən belədir. Azərbaycan siyasətində uzun illər tanınan həmin adamlar hörmət və nüfuz sahibləridir, partiya rəhbərləridir, ziyalılardır. Onlar əhalinin müəyyən qisminin maraqlarını ifadə edir və ölkəmizdə milli həmrəyliyin daha da möhkəmlənməsində əhəmiyyətli rol oynayırlar. Bunu görməmək və qiymətləndirməmək ədalətsizlik olardı.

**- Əli müəllim, partiyanın vaxtilə yüksək vəzifə tutmuş keçmiş məmurlara münasibəti necədir?**

- Uzun illər Yeni Azərbaycan Partiyasının iqtidarında vəzifə tutmuş bütün keçmiş məmurlara münasibətimiz onların vəzifədə olduğu dövrdəkindən fərqlənmir. Vəzifədə olarkən ciddi səhvlərə yol verdiyinə görə işdən kənarlaşdırılan və haqqında qanuna uyğun olaraq tədbirlər görülənlər istisna olunmaqla. Məmurun istefaya getməsi partiyanın ona münasibətinin dəyişməsi üçün əsas deyil və ola bilməz. İstefaya getmək onun cəzalandırılması deyil. Bizim hər birimiz nə vaxtsa istefaya gedəcəyik. Bunu normal yeniləşmə prosesi kimi qəbul etmək lazımdır və biz məhz belə edirik. İstefaya gedən və ya Milli Məclisə növbəti dəfə deputat seçilə bilməyən keçmiş millət vəkili yenə də bizim yanımızdadır, yenə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin uğur qazanmasına öz imkanları çərçivəsində dəstək verir. Onların xidmətləri və zəhmətləri də unudulmur. Əgər siz diqqətlə müşahidə edirsinizsə, həmin qəbildən olan insanlar partiyamızın keçirdiyi bütün tədbirlərdə iştirak edir, bizimlə bir sırada dayanır. Söhbət siyasi əqidədən gedir. Vaxtilə vəzifədə olan insanların hər biri Heydər Əliyev ideyalarına, İlham Əliyevin siyasətinə, dövlətə və dövlətçiliyə sadiq insanlardır. İstefaya çıxdıqdan sonra da onların hamısı həmin dəyərlərə sədaqətini saxlayırlar. Onlar bizim əqidə dostlarımız, yol yoldaşlarımızdır. Onlar bu iqtidarın təəssübünü çəkən, qədrini bilən, hər addımda onu dəstəkləyən hörmətli insanlardır.

Onu da demək istəyirəm ki, hər bir iqtidarın gücü həm də onun daxili əqidə birliyində, qarşılıqlı inam və hörmət mühitinin olmasındadır. Biz keçmiş məmurları əqidə və sədaqət baxımından indi vəzifədə olan məmurlardan fərqləndirmirik. Onların hər biri xalqını, dövlətini, dövlətçiliyi və prezidenti yolunda sədaqət və fədakarlıq göstərmiş və göstərən dəyərli insanlardır. Biz bir yerdə daha güclü oluruq.

**Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin gözlənilən görüşü ərəfəsində İrəvan növbəti destruktiv addım atıb. Belə ki, erməni mətbuatının yazdığına görə, işğalçı tərəf Qarabağın Arazboyu ərazilərində yerləşən Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarında kütləvi köçürmə prosesinə başlayır.**

# İşğal olunmuş Azərbaycan torpaqlarında Ermənistan yeni məskunlaşdırma planına başlayır...

## *Məhəmməd Əsədullazadə: "Bu yöndə aparılan qanunsuz fəaliyyət həm Qarabağ danışıqlarına inamı heçə endirir, həm də..."*



Bunun üçün Arazboyu kəndlərin münbit, əkinə yararlı torpaqlarında iri təsərrüfatların yaradılması planlaşdırılır.

2018-ci ildə yaradılan "Zona Araz" şirkətinin direktoru Qriqori Səfəryan bölgədə 3 min hektar sahədə meyvə bağlarının salındığını deyib. Onun sözlərinə görə, bununla bağlı bir sıra işlər görülüb: "170 hektar ərazi suvarma sistemi ilə təmin olunub. Hazırda 56 hektarda üzüm, 25 hektarda nar, 15 hektarda alma bağları salınıb. Eyni zamanda, heyva, ananas, şaftalı və s. bağlar da salınıb".

Yerli qondarma administrasiyanın üzvü Kamo Petrosyan bölgədə işçi qüvvəsi ilə bağlı problemlərdən şikayətlənib. Onun fikrincə, bununla bağlı yetərli işçi qüvvəsi yoxdur: "Burada torpaq sahələri çoxdur. Məhsul əldə etmək üçün işçi qüvvəsinə ehtiyacımız var. Amma dövlət dəstəyi aldığımız üçün yeni işçilərin gələcəyinə inamım var".

Göründüyü kimi, Ermənistan həyasızcasına işğal olunmuş ərazilərdə süni məskunlaşdırma siyasəti aparır. Bu işin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olmayan ətraf rayonlarda həyata keçirilməsi işğalçı tərəfin sülh danışıqlarında heç bir kompromisə getməyəcəyindən xəbər verir. O baxımdan ekspertlər Ermənistanın işğal olunmuş ərazilərdə yeni məskunlaşdırma planını həyata keçirməsinə necə yanaşırlar?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Ermənistan tərəfi Azərbaycanın işğal olunmuş ərazilərində fasilələrlə qanunsuz olaraq məskunlaşma siyasəti aparır. Arazboyu ərazilər əsasən əkinçilik üçün münbit olduğundan, işğalçı tərəf həmin torpaqları kənd təsərrüfatı məqsədilə istifadə edir. Təbii ki, bu yöndə aparılan qanunsuz fəaliyyət həm Qarabağ danışıqlarına inamı heçə endirir, həm də danışıqların davamlı olmasının qarşısını alır. Hesab edirəm ki, xarici işlər nazirlərinin növbəti görüşü ərəfəsində belə bir məskunlaşma siyasətini aparmaq danışıqların imitasiyasına səbəb olur. Ümumiyyətlə, münaqişə üzrə danışıqlar aparılırsa, tərəflər vəziyyəti gərginləşdirən proseslərdən yayınmalıdır. Ermənistan tərəfi isə bu kimi, danışıqları sabotaj etməklə məşğul olur. Ona görə də nazirlərin gözlənilən görüşündə bu məsələ qaldırılmalı və Azərbaycan preventiv addımlar atmalıdır. Qeyd edim ki, Ermənistan onsuz da danışaqlarada geri çəkilən deyil. O üzdən, yalnız güc tətbiq etməklə Ermənistanın qanunsuz məskunlaşma siyasətinin qarşısını almaq olar.

*"Yalnız güc tətbiq etməklə Ermənistanın qanunsuz məskunlaşma siyasətinin qarşısını almaq olar"*

Hazırda erməni tərəfi daha radikal addımlar atır və işğal olunmuş ərazilərdə infrastruktur layihələrini həyata keçirir. Bu baxımdan bizim əsas missiyamız belə avantüranın qarşısını almaqdan ibarət olmalıdır. Yoxsa, ermənilər bütün danışıqlara rəğmən, öz çirkin niyyətlərini davam etdirəcəklər. Azərbaycanın artıq mövqeyi Qərb tərəfindən müəyyən mənada dəstəklənir. Belə olan təqdirdə bizim hüququmuz var ki, bu cür təxribatların qarşısını alaq".

***Vidadi ORDAHALLI***

**"Trend"-ə açıqlamasında "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri, professor Vidadi Muradov bildirib ki, ölkəmizdə təkcə bir sahədə - qısa müddət ərzində xalçaçılıq sənayesinin yaradılması sahəsində görülən işlər cənab Prezidentin Azərbaycanın gələcəyi naminə necə böyük layihələr həyata keçirdiyinin bariz nümunəsidir.**

# Vidadi Muradovdan AXC hakimiyyətinə sərt ittiham - "Qədim xalçalarımız məhz onların dövründə ölkədən çıxarılıb..."



Xalçaçılığın tariximizin öyrənilməsində, milli mədəniyyətimizin təbliğindəki rolunu, iqtisadiyyatımızın inkişafına verəcəyi töhfələri dərindən təhlil edən dövlət başçısı 2016-cı ildə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətini yaradıb. "Azərxalça"nın bu gün respublikamızın müxtəlif şəhər və rayonlarında 21 filialı fəaliyyət göstərir. Bu xalça fabriklərində 2 min nəfərə yaxın toxucu çalışır. Yaxın zamanlarda toxucuların sayı 3 min nəfərə çatdırılacaqdır.

Xalça emalatxanalarının yaradılması ilə yanaşı, xalça toxunması üçün lazım olan xammalın da ölkəmizdə istehsalı qarşıya qoyulan əsas vəzifələrdən biri idi. Çünki xammal olmasa kütləvi xalça istehsalının həyata keçirilməsində çətinliklər yarana bilərdi. Ona görə də Sumqayıt Kimya Sənaye Parkında Yunəyrici-Boyaq Fabriki tikilib, Naxçıvan şəhərində, Bərdə, Sabirabad, Şabran və Qobustan rayonlarında regional yun və boyaq bitkilərinin tədarükü məntəqələri yaradılıb. Artıq cari ilin may ayından bu məntəqələrdə yun tədarükü həyata keçirilir. Son illərin ən irimiqyaslı iqtisadi layihələrindən biri olan Yunəyrici-Boyaq Fabrikində isə avadanlıqların quraşdırılmasına başlanılıb. 2020-ci ilin birinci rübündə artıq iplik istehsalına başlanılacaq. Tədarük məntəqələrində və fabrikdə ümumilikdə 250 nəfərə yaxın insan işlə təmin olunacaq. Göründüyü kimi, son illər təkcə bir sahədə 3500-dən çox iş yeri açılıb. Ölkə rəhbəri xalça emalatxanalarını, Yunəyrici-Boyaq Fabrikini, tədarük məntəqələrini yaratmaqla minlərlə toxucunu, fermeri sevindirib. İndi hər bir xalçaçının daimi iş yeri, hər bir fermerin də yunu sata biləcəyi ünvanı var. Dövlət başçısı xalçaçılıq sənayesini inkişaf etdirməklə bir-biri ilə zəncirvari formada bağlı olan bir neçə sahəni dirçəldib, Azərbaycanın qeyri-neft sektoruna, ixrac potensialına sanballı töhfələr verib. Bütün bunların nəticəsi olaraq, xalçalarımız Azərbaycan brendi kimi dünya bazarına çıxarılır. Dünya təcrübəsi göstərir ki, brend məhsullar yüksək gəlirin əldə edilməsinə səbəb olur.

Vidadi Muradov deyib ki, Prezident İlham Əliyevin dəstəyi ilə Mehriban xanım Əliyevanın milli dəyərələrimizdən biri olan Azərbaycan xalça sənətinin yenidən dirçəldilməsi sahəsində həyata keçirdiyi tədbirlər tarixi irsimizə sahib çıxmağın, onu yaşatmağın, tarixi yaddaşı bərpa etməyin analoqu olmayan nümunəsidir. Məhz Mehriban xanımın təşəbbüsü və əməyi nəticəsində Azərbaycan xalça sənətinin UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilməsi ümumən mədəniyyətimizin beynəlxalq miqyasda tanıdılması yönündə daha bir uğurlu addımdır.

Azərbaycan xalçaçılıq sənətinə göstərilən diqqət və qayğının daha bir nümunəsi Xalça Muzeyinə milli statusunun verilməsidir. Dövlətimiz Azərbaycan xalçasını həm milli dəyər, həm də iqtisadi faktor kimi qiymətləndirib, onun yaşadılaraq gələcək nəsillərə ötürülməsini, inkişafını təmin edib.

"Təəssüflər olsun ki, nəyin bahasına olursa olsun hakimiyyətə gəlmək hərisliyi xəstəliyinə tutulmuş radikal müxalifət Azərbaycanın bu uğurlarına kölgə salmağa cəhd edir"- deyən Vidadi Muradov bildirib ki, onların bu canfəşanlığının heç bir mənası yoxdur. Belə bir atalar məsəlimiz var: görünən dağa bələdçi lazım deyil. Xalqın gözü tərəzidir. Azərbaycan xalqı kimin kim olduğunu, vaxtilə onu düşdüyü bəlalardan hansı dühanın xilas etdiyini yaxşı bilir. Xalqımız öz dəyişməz yolunu hələ 1993-cü ildə müəyyənləşdirib. Azərbaycan xalqı 2003-cü ildən sonra keçirilən bütün seçkilərdə bu yola sadiq qaldığını nümayiş etdirib, bu gün isə öz Prezidentinin ətrafında sıx birləşib.

Əgər kimlərsə Azərbaycanın inkişafını görmək, vətəndaşların bugünkü hakimiyyət barədə nə düşündüyünü bilmək istəyirsə, biz onları "Azərxalça"nın fabriklərinə, sadə insanlarla, toxucularla görüşə, ünsiyyət qurmağa dəvət edirik. Guya xalqın adından danışanlar gəlib görsünlər ki, Qazaxda, Tovuzda, Ağstafada, Şəmkirdə, Ağdamda, Füzulidə, Goranboyda, Tərtərdə, Kürdəmirdə, Qubada, Xaçmazda, Şabranda, Qəbələdə, İsmayıllıda, Qobustanda, Abşeronda, Nardaranda sadə Azərbaycan insanları Prezidentinin ətrafında necə sıx birləşiblər, Onun yürütdüyü siyasəti necə dəstəkləyirlər və Ondan nə qədər razıdırlar. Sosial şəbəkələrin, digər internet resurslarının yaratdığı imkanlardan gen-bol bəhrələnən bu dil pəhləvanları hər gün dövlətimizin əleyhinə qarayaxma kampaniyası aparır, düşmən dəyirmanına su tökürlər. Hakimiyyətdə olduqları dövrdə ölkəmizi iflic vəziyyətinə salan bu radikallar Azərbaycan xalçaçılıq sənətini də məhv eləmişdilər. Onların dəyərsiz bir əşya kimi heç bir əhəmiyyət vermədiyi xalçanı Prezident İlham Əliyev milli dəyər səviyyəsinə yüksəldib və bu sahənin belə yüksək inkişafını təmin edib.

Bir faktı da deyim ki, xalqımızın tarixini özündə əks etdirən qədim xalçalarımız məhz onların hakimiyyətdə olduğu dövrdə ölkəmizdən çıxarılıb. Biz Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığımızı bildiririk ki, indi o xalçaları bir-bir dünyanın müxtəlif ölkələrindən Azərbaycana qaytarır.

Xalqımızın böyük oğlu Heydər Əliyev əsl vətəndaş olmaq üçün ləyaqət göstərməyi, xalq, Vətən naminə çalışmağı, Vətən sevgisini, doğma torpağa, doğma yurda bağlılığı əməli işlə nümayiş etdirməyi tövsiyə edərək deyirdi: "Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır". Bu gün Azərbaycan bütün sahələrdə əsl nümunə gücünə malikdir. Biz hər birimiz ölkəmizin inkişafı, Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi üçün əlimizdən gələni əsirgəməməli, bütün sahələrdə nümunə olan Azərbaycanımızın bu imicini qoruyub saxlamalı, ona xələl gətirməyə çalışanlara qarşı isə daim mübarizə aparmalıyıq.

Görkəmli Çin filosofu Konfutsi deyirdi ki, ya bir yol aç, ya bir yol göstər, ya da yoldan çəkil. Azərbaycan xalqı XX əsrin 90-cı illərinin əvvəlində indiki radikal müxalifətin açdığı yolla gedərək böyük bəlalara düçar oldu. Ona görə də xalqımız nə onların açdığı, nə də göstərdiyi yola inanır. Çünki hamı bilir ki, bu yolun sonu uçurumdur. İndi onların bir yolu qalır - yoldan çəkilmək. Azərbaycan xalqına heç olmasa bircə dəfə yaxşılıq etsinlər. Ölkəmizin inkişaf yolundan çəkilsinlər, onun tərəqqisinə mane olmasınlar.

**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP-ın icra katibinin müavini Siyavuş Novruzovun sabiq nazirlərlə bağlı verdiyi şok açıqlamalar ətrafında müzakirələr hələ sengiməyib.**

# Eks Azərbaycan nazirləri radikal söyüşçülərin maliyyələşdirilməsi ittihamına hələlik susur...

***Fazil Mustafa:** "Hər iki halla bağlı kriminal fəaliyyətdən söhbət gedir"*



O, YAP-ın üzvü olaraq vaxtilə yüksək vəzifə tutmuş sabiqlərin vəzifələrindən uzaqlaşdıqdan sonra "qeybə" çəkildiklərini, hakimiyyətə qarşı əks təbliğat aparanlara susduqlarını bildirib, ittihamlar səsləndirib: "Keçmişdə dövlət rəhbərliyində işləmiş nazirlər var. Biri 20 il işləyib, biri 18 il, biri 15 il, digəri 10 il. Bunlar hamısı çəkilib qırağa, mövqeyini bildirmir. Soruşan gərək, atan, baban sənə vəzifə vermişdi?!".

S.Novruzov xatırladıb ki, vaxtilə həmin eks-məmurların törətdiyi əməllərə, yol verdikləri qanunsuzluqlara görə hakim komanda hədəf olub: "Hələ bəzi problemləri də elə siz, keçmişdə nazir vəzifələrində çalışanlar yaradırsınız, bunu unutmayın! Ya çıxın, ortaya mövqeyinizi qoyun, ya da sizinlə bizim davamız daha gərgin olacaq! Hərəsi milyardı yığıb altına, qaçıb gizləniblər. Ona görə gəl ortaya, rəhmətlik ulu öndər demişkən, "mövqeyini bildir!"

S.Novruzov eks-nazirlərlə bağlı dosyenin masa üzərində olduğunu deyərək şok ittiham irəli sürüb: "Xaricdə oturanları maliyyələşdirmə! Masamın üzərində hamınızın siyahısı var, kimə nə verirsiniz. Mən onların hər birinə mətbuat vasitəsilə xəbərdarlıq edirəm. Ya mövqeyini bildir, ya da ki, başqa məsələlərə əl atılacaq!"

Bu xəbərdarlıq və ittihamların konkret olaraq kimə ünvanlandığı ilə bağlı isə S.Novruzov bunları deyib: "Mən konkretləşdirmək istəmirəm. Amma keçmişdə nazir vəzifəsində işləyiblər, yerinə yeniləri gəlib, onları nəzərdə tuturam. O insanlar ulu öndərə, cənab Prezidentə minnətdar olmalıdır ki, neçə illər ərzində bu dövlətin naziri kürsüsündə oturub. Amma bu gün onlar tamam başqa yol tutublar. Nə səsləri çıxır, nə sorağı. Dövlətin sizə borcu var idi? Sən dövlət yaratmısan?! Dövləti biz yaratmışıq, mübarizə ilə. Xalq hərəkatında olmuşuq, müharibələrdən keçmişik, digər işləri görmüşük. Sən də gəlib oturmusan, dövlətin naziri olmusan. Nazirlikdən çıxandan sonra elə bil ki, küskün bir adam kimi çəkilib qırağa. Atan vermişdi sənə, ya adına yazılmışdı bu vəzifə?!"

Siyavuş Novruzovun bu sərt açıqlamasında əsasən iki istiqamət nəzərə çarpır. O, sabiq nazirləri hakimiyyətin mövqeyini qorumaqla bağlı susqunluqda günahlandırır və onları xaricə sığınmış söyüşcül, radikal müxalifəti maliyyələşdirməkdə ittiham edir. Kifayət qədər sərt olan bu ittihamla bağlı hələlik sabiq nazirlərdən heç də hamısı cavab verməyib. Yalnız bir-iki sabiq nazir "Siyavuş müəllimlə biz dostuq, məni nəzərdə tutmaz" kimi fikir bildirməklə kifayətləniblər. Siyavuş Novruzovun səsləndirdiyi fikirlərlə bağlı kənar partiyaların nümayəndələri nə düşünürlər?

*"Səslənən ittihamlar mütləq hüquqi yanaşmanı tələb edir"*

Millət vəkili, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Siyavuş Novruzovun açıqlamalarını YAP-ın öz daxili məsələsi saymaq olar: "YAP funksioneri həmin partiyaya üzv olmuş şəxslərin fəaliyyətindən konkret narazılığını ifadə edib. Görünür, əllərində konkret informasiyalar var ki, belə fikirlər səsləndiriblər. Bu həm də hakimiyyətin öz daxilində olan bəzi qüvvələrin destruktiv fəaliyyəti ilə bağlı verilən açıqlamadır. Hər iki halla bağlı kriminal fəaliyyətdən söhbət gedir. Hesab edirəm ki, buna hüquq-mühafizə orqanları mütləq qiymət verməlidirlər. Çünki həm korrupsiya, həm də xaricdəki söyüşcül müxalifəti maliyyələşdirmək ağır cinayət əməli kimi xarakterizə edilə bilər. Zaman axımı baxımından da həmin cinayətlərin üstündən elə də çox vaxt keçməyib. Hüquqi cəhətdən bu araşdırmaların aparılmasına nəsə mane ola bilməz. Bu həm də bəzi vəzifəli şəxslərin korrupsiyaya qurşanması ilə bağlı əvvəllər deyilənlərin təsdiqi sayıla bilər. Bayanatı verən YAP funksioneridir. Ortada ciddi ittihamalr var. Hesab edirəm ki, əldə konkret faktlar olmadan belə ittihamları irəli sürmək olmaz. Bəzi sabiq nazirlərin bu açıqlamaya reaksiya verdiyini müşahidə etdik. Ancaq səslənən ittihamlar mütləq hüquqi yanaşmanı tələb edir. Bu məsələ bəyanatlar səviyyəsində həllini tapa bilməz".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistan cəmiyyətini böhran vəziyyətinə gətirib çıxaran və erməni xalqını səfil duruma çatdıran Ermənistanın Baş naziri Nikol Paşinyan yeni xilas yolları arayır. Paşinyan əlini hara uzadırsa, əli havada qalır. Ermənilərə verdiyi vədin heç birini yerinə yetirməyən Paşinyana xaricdəki erməni diasporu da üz vermir.**

# Paşinyan ABŞ-da erməni diasporu ilə 22 sentyabr görüşünün üstündə niyə bu qədər əsir...

***Qasım Hacıyev:** "Paşinyan Los-Ancelesdəki erməni icmasına, lobbisinə son ümid yeri kimi baxır"*




Baxmayaraq ki, o, bütün çıxışlarında, görüşlərində xaricdəki erməni diasporuna əl uzadır, onlardan kömək umur. Lakin diaspor da Paşinyana hər hansı bir dəstək vermir. Avropa ölkələrindəki diaspor qurumlarından əli üzülən Paşinyan avqustun 5-də Xankəndidə keçirdiyi ümumerməni mitinqində və ondan əvvəl keçirdiyi görüşlərdə xaricdə fəaliyyət göstərən erməni lobbisinə, xüsusən də Los-Ancelesdəki erməni icmasına müxtəlif çağırışlar ünvanlayıb. Məlum olduğu kimi, Paşinyan hazırda daha çox Los-Ancelesdəki erməni icması ilə görüşə can atır. Sentyabrın 22-də Los-Anceles erməniləri ilə Paşinyanın görüşü baş tutacaq. Onu da qeyd edək ki, Paşinyan Los Ancelesin erməni icması ilə görüşə xüsusi canfəşanlıqla hazırlaşır və bu görüşün baş tutması üçün əlindən gələni edir.

Paşinyanın Los-Anceles səfərinin üstündə bu qədər əsməsinin səbəblərini şərh edən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, bu gün Rusiyada, eləcə də Avropa ölkələrində olan erməni diaspor qurumları Paşinyana heç bir dəstək vermək istəmirlər. Paşinyanın öz hakimiyyətini bərkitmək üçün diaspordan pul qoparmaq niyyətinin elə də uğurlu alınmadığını deyən Q.Hacıyev hesab edir ki, o, Los-Ancelesdəki erməni icmasından həm pul qoparmaq istəyir, həm də onların birmənalı dəstəyini qazanmaq məqsədi güdür. Q.Hacıyev, həmçinin, bildirdi ki, Paşinyanın ABŞ səfərinin əsas məqsədi həm də erməni lobbisinin köməkliyilə Dağlıq Qarabağ məsələsinin həllində ABŞ-ın yüksək cinli şəxslərinin dəstəyini qazanmaqdır. "Ermənistan Baş nazirinin ABŞ-a səfərinin əsas səbəblərindən biri özünün cəfəng "Dağlıq Qarabağ Ermənistandır" planını reallaşdırmaqla bağlıdır. O hazırda bu məsələdə Los-Ancelesdəki erməni icmasının dəstəyini əldə etmək istəyir. Demək istəyirəm ki, Paşinyanın Los-Ancelesə səfəri təsadüfi xarakter daşımır, o bu səfərə məqsədli şəkildə gedir. Paşinyanın Los-Ancelesdəki erməni icmasından, lobbisindən umacağı çoxdur. Paşinyanın Dağlıq Qarabağla bağlı iyrənc planını həyata keçirmək üçün maliyyəyə də ehtiyacı var və o bu maliyyəni erməni icmasından qoparmaq istəyir. Bu gün Ermənistan dilənçi vəziyyətindədir, müxtəlif dövlətlərdən, o cümlədən də ABŞ-dan aldığı ianələr hesabına öz varlığını qoruyub saxlaya bilir. Ermənistan elə əvvəldən xarici dövlətlərin qarşısında diz çöküb "timsah göz yaşları" axıdaraq, ianə alırdı, bu gün də eyni yolu davam etdirir. Ermənilər xarici dövlətlərdən həm maddi, həm də mənəvi dəstək almaq istəyirlər. Bilirsiniz ki, bir çox iri xarici dövlətlərdə erməni diasporu fəaliyyət göstərir. Ən böyük erməni lobbisi Fransada, ABŞ-da və Rusiyadadır. Paşinyan yalnız ABŞ-dan deyil, digər dövlətlərdən də dilənçi payı umur. Ermənistanın ayaq üstə qalmasının səbəbi erməni diasporunun verdiyi maliyyə yardımıdır. Bu yaxınlarda ABŞ Konqresi ölkədə sosial vəziyyətin yaxşılaşdırılması üçün Ermənistana 84 milyon dollar ayırıb. Paşinyan indiyə qədər öz mövqeyini düzgün şəkildə bildirməyib. O həmişə Rusiyanın əleyhinə olub. Paşinyan hakimiyyətə Qərb tərəfindən gətirilib. Bu baxımdan Paşinyanın ümidi var ki, bu dəfə də ABŞ və Los-Ancelesdəki erməni diasporu ona dəstək verə bilər. Paşinyan Los-Ancelesdəki erməni icmasının həddən artıq güclü olduğuna inanır və buna görə də o icmadan maddi və mənəvi dəstək almaq istəyir. O hesab edir ki, Los-Ancelesdəki erməni icması ilə əlaqələr qurulularsa, onun vasitəsilə öz cəfəng fikirlərini həyata keçirmək üçün daha böyük imkan əldə edər.

*"...bu maliyyəni erməni icmasından qoparmaq istəyir"*

Paşinyanın özünün böyük nüfuzu yoxdur ki, diaspor onun sözü ilə oturub-dursun, hərəkət etsin. Xaricdəki erməni diasporunun ən çox narazı olduğu dövlət başçısı elə Nikol Paşinyandır. Qərbin Paşinyanın tərəfində olmasına baxmayaraq, xaricdəki erməni diasporu Paşinyanın tərəfində deyil. Başqa diasporlardan əli üzülüb və Paşinyanın yeganə ümid yeri Los-Ancelesdəki erməni icmasıdır. Paşinyan Los-Ancelesdəki erməni icmasına, lobbisinə son ümid yeri kimi baxır" - deyən Q.Hacıyevin sözlərinə görə, xaricdəki erməni diasporunu Paşinyandan narazı salan səbəb Paşinyanın səriştəsizliyidir. Onun sözlərinə görə, xaricdəki erməni diasporu Paşinyanın davranışlarından çox narazıdır.

***İradə SARIYEVA***

**"Taşir" şirkətlər qrupunun sahibi, erməni milyarder Karen Karapetyanın başçılığı ilə Moskvada bir sıra erməni mənşəli iş adamlarının iştirakı ilə Ermənistan Sahibkarlar Birliyi adlı təşkilat yaradılıb.**

# Paşinyan pul gözləyirdi, Rusiyada erməni biznesmenlər onun özünə qarşı birləşir...



## *Elşən Manafov: "Erməni əsilli iş adamlarının Paşinyana qarşı birləşməsi onun üçün yaxşı heç nə vəd etmir"*

Erməni mətbuatının yazdığına görə, Assosiasiya Moskvada qeydiyyata alınıb və Ermənistanın sabiq baş naziri Karen Karapetyan birliyin prezidenti seçilib.

Birliyin təsisçiləri arasında Karapetyanla yanaşı, onun nəzarətində olan "Fora Bank"ın prezidenti Hayk İqnatyan, "Comedy Club"un təsisçisi Artur Janibekyan, "Taşir" şirkətlər qrupunun birinci vitse-prezidenti Varuzxan Artenyan, "Luding" şərab müəssisəsinin həmtəsisçisi Armen Şahazizyan və başqaları var.

Onu da qeyd edək ki, Rusiyada fəaliyyət göstərən Karen Karapetyan İrəvandan Moskvaya bir müddət əvvəl qayıdıb. O, İrəvanda olarkən Ermənistanın sabiq prezidenti Serj Sərkisyan və keçmiş hakimiyyətin nümayəndələri ilə görüşüb. Karapetyanın bu görüşləri Ermənistanın mövcud hakimiyyəti tərəfindən birmənalı qarşılanmayıb. Kremlə yaxınlığı ilə seçilən Karapetyanın son dönəmlərdəki bu fəallığı Baş nazir Nikol Paşinyanın başçılığındakı iqtidara qarşı yeni siyasi partiyanın qurulması iddialarına yol açıb.

Həbsdə olan sabiq prezident Robert Köçəryanın liderlik etdiyi "Qarabağ klanı"nın da dəstək verdiyi bu siyasi hərəkatın payızda genişmiqyaslı mitinqlərə başlayacağı xəbərləri yayılıb. "Qarabağ klanı"na yaxınlığı ilə seçilən media qurumlarının "Erməni payızı" adlandırdıqları proses artıq Paşinyan iqtidarını da narahat etməyə başlayıb. Karapetyanın liderliyində Moskvada yeni ittifaqın qurulması isə Paşinyan iqtidarına qarşı gizli qiyamın hazırlanması iddiasını yenidən gündəmə gətirib.

Paşinyan Rusiyada yaşayan erməni iş adamlarından sərmayə gözləyirdi. Ancaq, göründüyü kimi, bu baş vermədi. Əvəzində Rusiyadaki erməni əsilli zəngin iş adamları Paşinyana qarşı birləşdilər. O baxımdan yaranan vəziyyəti ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, Rusiyadaki bir sıra iş adamlarının Paşinyana qarşı birləşməsi təsadüfi deyil: "Karen Karapetyan 2016-cı ilin sentyabrından 2018-ci il mayın 8-nə qədər Ermənistanın baş naziri olub. Eyni zamanda, sözügedən şəxs kifayət qədər vəsaiti olan bir şəxsdir və onun Rusiyadakı oliqarx sistemi ilə, erməni əsilli iş adamları ilə münasibətləri də bəllidir. Bütün bu proseslərin arxasında Paşinyan hökumətinin yeritdiyi Qərbyönümlü siyasətdən narazılıq dayanır. Məsələ ondadır ki, Paşinyan nə qədər manevr etməyə çalışsa da, onun Qərbə yönəlik siyasəti Kremlin diqqətindən yayınmır. Ona görə də məhz Kreml tərəfindən olan sifarişin nəticəsidir ki, Rusiyadakı erməni əsilli iş adamları Paşinyana qarşı birləşirlər. Paşinyanın bütün səylərinə və istəklərinə baxmayaraq, onlar Ermənistandakı iqtisadi vəziyyətə dəstək verməkdən imtina edirlər. Digər tərəfdən, burada geosiyasi faktorlar, klanlararası savaş və Respublkaçılar Partiyasının revanş götürmək istəyi də göz qabağındadır. Bu mənada, Paşinyanın bütün səylərinin nəticəsiz qalması ortadadır. Bu günlərdə Köçəryanla bağlı məhkəmə prosesində bir daha məlum oldu ki, məhkəmə sistemində və güc strukturlarında "Qarabağ klanı"nın təmsilçiləri, tərəfdarları yetərincə çoxdur. Eyni zamanda, bu günlərdə Putinin Köçəryanla bağlı yubiley təbriki Rusiyanın "Qarabağ klanı"na stavka etməsi ilə bağlı bir mesaj idi. Bu həm də Dağlıq Qarabağdakı separatçı rejimə bir siqnal idi. O mənada ki, Paşinyanın bütün səylərinə rəğmən, o özünə yaxın olan adamı separatçı quruma rəhbər təyin edə bilməyib. Bütün hallarda, Rusiyadakı erməni əsilli iş adamlarının Paşinyana qarşı birləşməsi onun üçün yaxşı heç nə vəd etmir".

> *"Baş nazirin bütün səylərinə və istəklərinə baxmayaraq, onlar Ermənistandakı iqtisadi vəziyyətə dəstək verməkdən imtina edirlər"*

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, ABŞ Ermənistanın humanitar missiya adı altında Suriyaya hərbi heyət göndərməsinə mənfi mövqedən yanaşır. Dəfələrlə müxtəlif səviyyələrdə buna Vaşinqtonun yaxşı baxmadığı Ermənistan rəsmilərinin diqqətinə çatdırılıb.**

# ABŞ-ın Ermənistana verdiyi minatəmizləyən qurğular Suriyada işləyir - yeni beynəlxalq qalmaqal...



## *Ramil Hüseynov: "Bu, ABŞ-ın sözügedən sahədə Ermənistanla əməkdaşlığı dayandırmasına gətirib çıxara bilər"*

Erməni mətbuatının yazdığına görə, hətta bu günlərdə ABŞ administrasiyası Ermənistan hakimiyyəti qarşısında hərbi kontingentin Suriyadan geri çəkilməsi haqda tələb qoyub. Bununla əlaqədar Ermənistanın müdafiə nazirinin, xarici işlər nazirinin və bir neçə səfirin iştirakı ilə qapalı toplantı keçirildiyi deyilir. Məlumatda o da deyilir ki, ABŞ Ermənistanın Suriyaya hərbi kontingent göndərməsi ilə bağlı narazılığını bu ölkənin BMT-dəki səfiri Mqer Marqaryan vasitəsilə çatdırıb. Bildirilib ki, bu məsələ Ermənistan-ABŞ münasibətlərinə zərbə vurur. Əgər kontingent çıxarılmasa, bunun ikitərəfli münasibətlərə təsiri olacaq, üstəlik, ABŞ Ermənistana verdiyi minatəmizləyən avadanlığın Suriyada istifadə edilməsinə qadağa qoyacaq.

Məsələnin maraq doğuran tərəfi ondan ibarətdir ki, Ermənistan ABŞ-ın icazəsi olmadan minatəmizləyən avadanlıqları Suriyada istifadə edir. Nəzərə alsaq ki, ABŞ Ermənistanın Rusiyanın rəhbərliyi altında Suriyada iştirakına qarşıdır, o zaman bu, tərəflər arasında münasibətlərə təsirsiz ötüşməyəcək. Çünki neçə ildir ABŞ müxtəlif proqramlar çərçivəsində minatəmizləmə sahəsində Ermənistana texniki yardım göstərir. Ancaq aydın olanda ki, həmin avadanlıqlar Suriyada da istifadə edilməkdədir, o zaman ABŞ-ın Ermənistanla bu sahədə əməkdaşlığının axırı necə ola bilər?

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, məsələ bir qədər də böyüyərsə, ABŞ bununla bağlı Ermənistanla əməkdaşlığı dayandıra bilər: "Fikrimcə, ABŞ hələ gözləmə mövqeyindədir. Vaşinqton ümid edir ki, Paşinyan bəlli bir mərhələdə Ermənistanın Suriyadakı hərbçilərini çıxaracaq. Ona görə də indiki məqamda bu məsələdə tələsmir. Unutmaq olmaz ki, Suriya məsələsində ABŞ-ın Ermənistandan tələbləri get-gedə daha qabarıq müstəvidə özünü göstərir. Son günlər bəzi erməni mətbuat orqanlarında yazılanlar məsələnin ciddi olmasından xəbər verir. Ermənistan hələlik tələbləri yerinə yetirmədiyi üçün Paşinyan yüksək səviyyədə ABŞ-a rəsmi səfərə dəvət edilmir. Hesab edirəm ki, proseslərin gedişindən asılı olaraq, minatəmizləyən avadanlıqların Suriyada istifadə edilməsi ABŞ-ın bu sahədə Ermənistanla əməkdaşlığı dayandırmasına gətirib çıxara bilər. Lakin Vaşinqton ehtiyat edir ki, İrəvana aşırı təzyiqlər Rusiyayönümlü "Qarabağ klanı"nın yenidən ölkədə hakimiyyətə gəlməsinə səbəb ola bilər. Bu da ABŞ-ın maraqlarına uyğun deyil. Ona görə də rəsmi Vaşinqton bir qədər ehtiyatla bu işi aparır".

> *"Son günlər bəzi erməni mətbuat orqanlarında yazılanlar məsələnin ciddi olmasından xəbər verir"*

***Vidadi ORDAHALLI***

# Türkiyənin nüvə silahı perspektivi - Qafqazda güc amilinin radikal şəkildə dəyişməsi...

**Geosiyasi müstəvidə mövqelərini getdikcə gücləndirən qardaş Türkiyənin hərb sahəsində atmağa hazırlaşdığı yeni addımlar böyük bir coğrafi məkanda qüvvələr balansına da əhəmiyyətli dərəcədə təsir göstərəcək. Söhbət Türikyənin nüvə dövlətinə çevrilə bilmə ehtimalından gedir.**

Belə görünür ki, Qərb dünyası, xüsusən də ABŞ, eləcə də İsraillə artan ziddiyyətlər, Aralıq dənizində Ankaraya qarşı təxribatçı addımlar Türkiyəni indi daha radikal addımlar atmağa vadar edir.

Eyni zamanda İran amili də burada az rol oynamır. Ehtimal edilir ki, ABŞ-ın nüvə razılaşmasından çıxmasından sonra İran artıq nüvə silahı əldə etməyə çalışır. İranın nüvə silahına can atması isə Türkiyəni də bu yöndə düşünməyə vadar edib. İsrailin də nüvə silaşına malik olması və Ankara ilə Təl-Əviv arasında gərgin münasibətlər də artıq Türkiyənin məsələyə fərqli prizmadan yanaşmasüı ilə müşayiət edilməkdədir. Məhz belə bir vaxtda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bu günlərdə nüvə silahı haqda açıqlaması artıq dünya gündəmini zəbt edib. Onun "Bizim nüvə silahımız niyə olmasın" deməsi artıq geniş müzakirə predmetidir. Ekspertlər bütün bunları heç də təsadüfi saymır. Əvvəla, Türkiyənin olduğu regionda təhlükəsizlik risqləri çox ciddi şəkildə artır. Bu risqləri artıran məqamlardan biri də regionda nüvə silahı ilə bağlı fəaliyyətlərin genişlənməsidir. İkincisi, Türkiyədə nüvə araşdırmalarının ciddi şəkil alması, atom elektrik stansiyasının yaradılması da məsələyə təkan verən faktordur. Türkiyənin nüvə tədqiqatlarına marağı özünü Rusiya ilə nüvə əməkdaşlığında da göstərir. "Akkuyu" AES bunun real nümunələrindən biridir. Yəni Türkiyə ilə Rusiya arasında AES-lə bağlı əməkdaşlıq var. "Akkuyu" konteksində türkiyəli mütəxəssislər nüvə elmini və nüvə araşdırmalarını daha yaxından öyrənmək üçün Rusiyaya göndərilib. Başqa əhəmiyyətli məqam ondan ibarətdir ki, Türkiyə, sadəcə, "Akkuyu" ilə kifayətlənməyərək, gələcəkdə iki yeni AES yaratmağı planlaşdırır. Belə vəziyyətdə ehtimal edilir ki, Türkiyə Rusiya ilə daha da yaxınlaşacaq və bu, həm də ehtiyac olarsa, Türkiyəyə nüvə stlahı əldə etmək imkanı verəcək. Türkiyənin "Milliyet" qəzeti yazır: "Türkiyə prezidenti Rəcəb Tayib Ərdoğan Sivasda Mərkəzi Anadolu iqtisadi forumundakı sürəkli çıxışında son dərəcə önəmli bir açıqlama verərək deyib ki, onun fikrincə, Türkiyə nüvə silahına yiyələnməlidir və bu yöndə bəzi işlərin başlandığını da söyləyib. Bu, prezidentin və ya hər hansı yüksəkməqamlı rəsminin ağzından bu mövzuda açıq səslənən ilk bəyanatdır.




Türkiyənin nüvə silahına yiyələnmək niyyəti haqda Sivasdan gələn bu xəbər dünya KİV-ndə böyük maraq doğurub. Prezident Türkiyənin müdafiə bacarığını möhkəmlətmək üzrə müxtəlif uğurlu işlərdən danışarkən inkişaf etmiş bütün ölkələrin nüvə silahına yiyələndiyini bildirərək, Türkiyənin oxşar imkandan məhrum olduğu durumu qəbuledilməz adlandırıb, habelə yada salıb ki, bölgədə İsrailin belə bir potensialı var. Prezidentin bu bəyanatı göstərir ki, artıq Türkiyənin gündəliyində hədəf durur - nüvə silahlı ölkələr sırasına daxil olmaq. ABŞ, Rusiya, Çin, Böyük Britaniya, Fransa, Hindistan, Pakistan, İsrail və Şimali Koreya belə ölkələrə aiddir. İran da bu yolla getmək istəyir, amma bəlli mübahisələr üzündən əngəllərlə üzləşir.

Bundan savayı, bu, Türkiyənin hədəfini açır - hərbi sahədə də dünya dövləti olmaq. Amma buna nail olmaq üçün hansı strategiyanın tətbiq ediləcəyi, qeyd edildiyi kimi, artıq başlanmış ilk işlərin hansı mərhələdə olduğu və Türkiyənin buna görə hansı ölkələrlə təmasa girdiyi hələlik məlum deyil. Yəqin ki, bu önəmli ayrıntılar zaman keçdikcə aydınlaşar. Ərdoğanın öz çıxışında bəhs etdiyi amillər Türkiyənin "nüvə klubu"na qoşulmaq istəyini tələsdirir. Bu istək təkcə "Başqalarında varsa, bizdə niyə olmamalıdır" arqumenti ilə şərtlənməyib. Ankara güclü, bütün sahələrdə səs hüququ olan bölgəsəl və dünya dövləti olmaq istəyir. Türkiyə belə bir gücə söykənmək və balans siyasətini rəhbər tutmaqla öz fəaliyyətində daha müstəqil olmağa ümid edir. Heç şübhəsiz, nüvə silahına yiyələnən Türkiyə bu kontekstdə müəyyən üstünlüklərə malik olacaq. Amma nüvə başlıqlarını düzəltmək, məsələn, hansısa ölkədən konvensional silah almaq kimi elə də asan deyil. Nüvə başlıqları (ya da, sadə deyilsə, atom bombaları ) başqasından alınmır, belə, ya elə, ölkənin öz potensialı əsasında istehsal olunur.

Türkiyə nüvə silahı düzəltmək üçün texnologiyaya, infrastruktura və istehsal üçün hazırlıqlı kadrlara yiyələnməli olacaq. Əlbəttə, bunların hamısı əldə ediləndir, amma buna zaman gərəkdir. Siyasi baxımdan bəzi çətinliklər meydana çıxa bilər. Türkiyə 1980-ci ildə nüvə silahının yayılmaması haqda beynəlxalq müqaviləyə qoşulub, yəni "müqavilələrə əməl olunmalıdır" prinsipi çərçivəsində öhdəlik daşıyır. Bəzi ölkələr bununla bağlı Ankaraya qarşı sadəcə çıxış etməz, həm də xarici siyasətdə yeni ciddi problemlər yarada bilər. Şübhəsiz, Türkiyədə bu mövzu da ən yaxın günlərdə ayrıntılı müzakirə olunacaq. "Nüvə Türkiyəsi" layihəsi artıq gündəlikdədir".

**Ekspertlər hesab edir ki, Ankara bu məsələdə istəklərinə nail olsa, bu, Türkiyənin dünya miqyasında mövqeyini gücləndirəcək. Azərbaycanın bu prosesdə Türkiyənin yanında olacağı şübhə doğurmur. Çünki belə vəziyyətdə Türkiyə Qafqazda da böyük nüfuz sahibinə çevrilə bilər və hadisələrin bu səpkidə inkişafı da ölkəmizin marağındadır. Hər halda, qarşıdakı dövr ərzində qeyd olunan xüsusda proseslərin daha maraqlı müstəvidə cərəyan edəcəyi gözlənir. Baş verənləri region ölkələri, o cümlədən Azərbaycan da yaxından izləyir.**

***Nahid SALAYEV***

# Avropa ölkələrindən ermənilərin kütləvi deportasiyası Ermənistan üçün ciddi problemə çevrilir...

**Hazırda Ermənistanda ən çox müzakirə olunan mövzu həmin ölkə vətəndaşlarının kütləvi şəkildə Avropa Birliyi ölkələrindən deportasiya edilməsidir. Erməni KİV-i məlumatı təsdiqləyir, hətta bundan sonra həmin ailələrin və fərdlərin taleyinin necə olacağı ilə bağlı araşdırmalar da aparır.**



Bildirilir ki, Almaniyadan xüsusi çarter reysilə Ermənistana göndərilən vətəndaşların çoxu heç deportasiya olunacaqları ilə bağlı bildiriş də almayıb. Bəziləri isə belə bildirişlər alıb, lakin səhhətləri ilə bağlı orada qalıb müalicə olunmalarını tələb ediblər, nəticədə onlar da ölkədən deportasiya olunub.

Arman adlı bir erməni deyir ki, öz ailəsi ilə Almaniyaya sığınıbmış. Ailəsində üç övladı var, onlardan ikisi anadangəlmə əlildir. Uşaqların Almaniyada reabilitasiya kursu keçdiyini deyir. Buna baxmayaraq, alman polisi evə girərək, onları məcburi qaydada ölkədən çıxarmağa nail olub. Arman deyir ki, həmin ana qədər heç bir şifahi və ya yazılı bildiriş almayıblar: "İndi mən təsəvvür edə bilmirəm, Ermənistanda necə yaşayacağıq? Bütün əmlakımızı satıb ora getmişdik. Uşaqların müalicəsini necə edəcəyimi də bilmirəm. Çünki buna pulum da yoxdur, həm də Ermənistanda səhiyyənin səviyyəsi çox aşağıdır".

Almaniyadan zorla çıxarılan başqa bir erməni qadın da böyrəklərinin xəstə olduğunu deyir və bundan sonrakı taleyindən ciddi narahatlıq keçirdiyini bildirir.

Ermənistan Miqrasiya Xidmətinin rəsmisi Nelli Davtyan bildirib ki, bununla bağlı hökumət xüsusi proqram həyata keçirməyi düşünür: "Onun vasitəsilə biz ölkəyə qayıtmış vətəndaşlarımızın müvəqqəti yaşayış və müalicə problemlərini həll etməyə çalışacağıq".

Dövlət rəsmisi də ermənilərin Almaniyaya daha çox üz tutduqlarını deyir: "Ancaq son illər bu proses çətinləşib, ona görə də vətəndaşlarımız belə vəziyyətə düşüb. Biz dəfələrlə vətəndaşlarımıza bu yolu tutmamaları ilə bağlı tövsiyələr vermişik, amma sonda yenə öz bildiklərini ediblər".

Nelli Davtyanın sözlərinə görə, onların xidmətinə Avropa ölkələrində vətəndaşlarının geri qaytarılması ilə bağlı edilən müraciətlərin sayı ilbəil artır. 2017-ci ildə bu, 1753, 2018-ci ildə 1768, 2019-cu ilin təkcə birinci yarısında isə bu rəqəm 997 nəfər təşkil edib. Daha çox ermənilərin qovulduğu ölkələr Avropa Birliyinə aid dövlətləri əhatə edir.

Erməni KİV-nin etiraf etdiyi bu acınacaqlı vəziyyət nəyin göstəricisi sayıla bilər?

AMİP funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistandakı bu acınacaqlı vəziyyəti yalnız özləri etiraf etmirdi: "Ölkə rəhbərlərinin indiyə qədər yürütdüyü işğalçı siyasət ucbatından ölkədəki demokrafik vəziyyət acınacaqlı hal alıb. Ölkədəki sosial-iqtisadi vəziyyətin pis olması, işsizlik problemi onları ölkəni tərk etməyə vadar edirsə, digər bir səbəb də müharibə ilə bağlıdır. Erməni anaları açıq etiraf edirlər ki, onlar övladlarının bu müharibədə ölməsini istəmədiyindən, ölkədən çıxarırlar. Hətta bu tələblərlə bağlı İrəvanda açıq aksiya da keçirirlər. İndi Paşinyan əhalinin sayının artmasını prioritet elan edib. Amma bunun mümkünsüzlüyü ortadadır. Onların özlərinin açıqladığı statistikaya diqqət edək. 2018-ci ildə Ermənistanda 35 min 502, 2017-ci ildə 37,7 min, 2016-ci ildə 40 min 592, 2015-ci ildə 41 min 763 uşaq dünyaya gəlib. Digər bir məqam ölkədən çıxan insanların çoxunun geri qayıtmamasıdır. Məsələn, 2017-ci ildə ölkəni tərk edən insanların 40 minə yaxını geri dönməyib və ölkəni birdəfəlik tərk edib. Burada onu da qeyd etmək lazımdır ki, ölkəni tərk edənlərin böyük əksəriyyətini əmək qabiliyyəti olan gənclər və ailəli insanlar təşkil edir. Son illər məktəbli yaşında olan uşaqların ailələri ilə birlikdə ölkəni tərk etməsi halları artıb. Bu amil, bir növ, Ermənistan hakimiyyətinə sərf edirdi. Çünki onların daha çox əhalini saxlamağa potensialı yoxdur. Artıq tərsinə proses başlayıb. İndi də erməniləri kütləvi şəkildə ölkəyə qaytarırlar. Avropadan başlayan bu proses Ermənistandakı daxili narazılığı bir qədər də artıracaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Rusiya Paşinyanın təqib etdiyi daha bir eks-naziri aşkar siyasi himayə altına aldı

**Ermənistanın keçmiş müdafiə naziri, silahlı qüvvələrin keçmiş Baş Qərargah rəisi, general-polkovnik Mikael Arutunyanın adı Rusiyada axtarılan şəxslər siyahısından çıxarılıb. Bu barədə məlumatı erməni KİV-i yayıb.**



***Hatəm Cabbarlı:** "Ermənistanın sabiq müdafiə naziri Mikael Arutunyanın Rusiyada axtarışının dayandırılması da İrəvana təzyiq formalarından biridir"*

General M.Arutunyan Ermənistanda 2008-ci il 1 mart hadisələrinin istintaqı çərçivəsində MDB çərçivəsində dövlətlərarası axtarışa verilmişdi. Bildirilir ki, artıq M.Arutunyanı Rusiyada heç bir təhlükə gözləmir. Lakin o,başqa MDB ölkələrində görünsə,həbs olunub Ermənistana təhvil verilə bilər. Qeyd edilir ki, Arutunyanın həbsi və təhvil verilməsi barədə sorğu Ermənistanın Baş Prokurorluğundan deyil, Rusiyaya dövlətlərarası axtarış xətti ilə daxil olub. Həmin orderdə Arutyunyanın Rusiyadakı ev ünvanı da göstərilib.

Bu mövzu ətrafında aparılan müzakirələrdə ekspertlər bildirirdilər, Arutyunyanın Ermənistana verilməsi mümkün deyil. Çünki onun 2002-ci ildən Rusiya pasportu var. Ermənistanın polis rəisi Valeri Osipyanın bildirdiyinə görə, Arutyunyan, habelə keçmiş prezident Serj Sarkisyanın qardaşı Levon və qohumu Ani Sarkisyan iyul ayından etibarən dövlətlərarası axtarışa verilib. Qeyd edək ki, Arutunyan Qarabağda erməni ordusunun işğal əməliyyatlarının planlaşdırılmasına rəhbərlik edənlərdən biridir. 1994-2007-ci illərdə isə Ermənistan Silahlı Qüvvələrinin Baş Qrargah rəisi işləyib. 2007-2008-ci illərdə müdafiə naziri olub. 2008-ci ilin aprelindən isə Ermənistan Prezidenti yanında bş hərbi müfəttiş idi. Ötən il Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra axtarışa verilib. Xatırladaq ki, bir müddət əvvəl Rusiya hakimiyyəti Ermənistanın Məhkəmə Atlarının Məcburi İcrası Xidmətinin keçmiş rəisi Miqran Poqosyana müvəqqəti sığınacaq verib. O, Ermənistan hakimiyyəti tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirləndirilirdi. İrəan onun ekstradisiyası üçün Moskvaya rəsmi müraciət etsə də, Rusiya həmin tələbi yerinə yetirməyib. Rusiya tərəfindən atılan bu iki mühüm addım nəyi söyləməyə əsas verir?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Nikol Paşinyanın Ermənistanda inqiab nəticəsində hakimiyyətə gəlməsindən sonra, son 28 ildə formalaşan Ermənistan-Rusiya münasibətlərində qırılma nöqtəsi yaşandı: "Nikol Paşinyan hakimiyyətinin ilk dönəmində Rusiyaya qarşı səsləndirdiyi sərt bəyanatları ilə yadda qalmışdı. Xüsusilə də son bir il yarımlıq hakimiyyəti dönəmində iki ölkə arasındakı soyuqluq artan faza üzrə inkişaf edib. Bunlardan ən birincisi Rusiyanın sadiq müttəfiqlərindən olan Robert Köçəryanın həbsidir. Həmin həbs tərəflər arasındakı münasibətləri daha da gərginləşdirib. Buna baxmayaraq, Rusiya dolayı yolla Paşinyan hakimiyyətinə xəbərdarlıq etdi ki, müəyyən addımlar atsın. Rusiya Prezidenti Putinin həbsdə olan Paşinyana iki dəfə öz adından təbrik göndərməsi buna əyani sübutdur. Tərəflər arasındakı münasibətlərin pis olduğunu sərtləndirən başqa amillər də mövcuddur. Rəsmi səviyyələrdə onlar bir-birini müttəfiq, strateji partnyor kimi qələmə verməyə çalışsalar da, soyuqluğu gizlətmək mümkün deyil. Bunlardan biri də özünü Rusiyaya sığınmış, Paşinyan əleyhdarları kimi tanınan yüksək rütbəli sabiq məmurlarla bağlı yaşananlarda göstərir. Ermənistanın sabiq müdafiə naziri M.Arutunyanın Rusiyada axtarışının dayandırılması da İrəvana təzyiq formalarından biridir. Rusiya tərəfi bəyan edir ki, onlara göndərilən məktubda Arutunyanın cinayət törətmədiyi, başqa məqsədlərlə təqib edildiyi və ən əsası, onun Rusiya vətəndaşı olduğu öz əksini tapıb. Bütün bu diplomatik cavaba baxmayaraq, burada İrəvana Rusiyanın təzyiqi açıq özünü göstərir. Çünki bir müddət əvvəl Moskva Paşinyan tərəfdən təqib olunan başqa bir sabiq məmuru da Ermənistana verməkdən imtina etdi. Bunları Paşinyan hökumətinə ünvanlanan son xəbərdarlıq kimi qəbul edə bilərik. Oktyabrda Ermənistanda Avrasiya İqtisadi Birliyinin zirvə görüşü keçiriləcək. Həmin görüşdə Putinin iştirakı da gözlənir. Bütün bu problemlərlə bağlı ətraflı müzakirənin aparılacağına dair ehtimallar böyükdür. Ancaq düşünmürəm ki, münasibətlərin normallaşacağına dair bir razılıq əldə olunsun. Çünki Paşinyan konkret yönü bəlli olan siyasətçi deyil. Rusiya da ondan özünün istədiyi addımların atılmasını görməsə, heç bir güzəşt olmaycaq".

**Məhəmmədəli QƏRİBLİ**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Qarabağda antiterror əməliyyatlarına start verə bilər

**Ermənistanda mövcud hakimiyyət və onun rəhbərliyinin atdığı addımlar, sərgilədikləri ziddiyyətli mövqelər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı problemin həlli istiqamətində indi ən böyük manеələrdən birinə çevrilib. Digər tərəfdən belə görünür ki, hakimiyyətin Qarabağ məsələsindən öz siyasi məqsədləri üçün istifadə etməyə çalışması da çözümü əhəmiyyətli dərəcədə əngəlləyir.**

Erməni mediası isə belə bir vaxtda maraqlı məlumat yayaraq bildirib ki, Nikol Paşinyan iqtidarına başqa bir tərəfdən əvvəl terrorçu qruplaşma kimi fəaliyyət göstərib indi siyasi partiyaya çevrilən "Sasna Tsrer"in də təzyiqləri artır.

Xatırladaq ki, "Sasna Tsrer" üzvlərini həbsdən məhz Nikol Paşinyan azad edib. Elə bu günlərdə "Sasna Tsrer" partiyasının üzvləri Jirayr Sefilyan və Qareqin Çuqaszyanın Paşinyanla növbəti görüşü keçirilib. Erməni mediası yazır ki, Ermənistan polisinin yuxarı dairələrinin nümayəndələri Paşinyanın İrəvanda terror həyata keçirmiş, üç polisi öldürmüş qrupun rəhbərliyini yüksək səviyyədə qəbul etməsindən narazıdır. Məlumata görə, Paşinyan "Sasna Tsrer"i aktivləşdirməklə öz hakimiyyətini təhdid edən siyasi qruplara qarşı yeni müqavimət ocağı yaratmaq istəyir. "Sasna Tsrer"in daxili-siyasi gərginlik ocaqlarını sərt əks-təsirlə sakitləşdirmək üçün gücdən istifadə etməsi proqnozlaşdırılır. Eyni zamanda məsələnin maraqlı tərəflərindən biri də budur ki, "Sasna Tsrer" Qarabağ məsələsinin danışıqlar yolu ilə çözülməsinin əleyhinədir. Bildirilir ki, partiya Paşinyanla bu sahədə razılıq əldə etmək və əvəzində baş nazirin rəqiblərini, lazım gəlsə, güc yolu ilə aradan qaldırmağa hazırdır. Respublika Partiyasının sədr müavini Armen Aşotyan da bu xüsusda oduqca maraqlı fikirlər səsləndirib. O qeyd edib ki, Paşinyan və "Sasna Tsrer"in görüşü artıq çox mətləblərdən xəbər verir. Aşotyanın sözlərinə görə, görüşdən sonra Jirayr Sefilyanın dedikləri az vahiməli deyildi. O bildirib ki, bu 15 ay ərzində bütün dövlət repressiv aparatı siyasi müxalifətçiləri dəqiqləşdirmək, susdurmaq üçün istifadə edilib və istifadə edilir. Onun sözlərinə görə, bu represiyalar Paşinyan üçün arzuolunan nəticəni vermir: "Üstəlik, terrorçulardan istifadə ölkəni məhvə sürükləyir. Biz bununla Qarabağ məsələsi və digər istiqamətlərdə uduzmağa məhkumuq".

Aşotyan qeyd edib ki, görüşdən sonra Sefilyanın Moskvanın Paşinyandan qurtulmaq qərarına gəldiyi barədə açıqlamalarının mütləq nəticələri olacaq. Məsələnin bu tərəfinə rusiyalı politoloq Stanislav Tarasov da toxunub. O, Sefilyanın Moskvanın Paşinyandan qurtulmaq qərarına gəldiyi barədə yaydığı məlumatın dezinformasiya olduğunu, eyni zamanda Rusiya hakimiyyətinin vacib məsələlərə dair hazırkı Ermənistan hakimiyyətinin mövqeyini başa düşmədiyini deyib. Tarasov qeyd edib ki, "Sasna Tsrer" partiyasının idarə heyətinin üzvü Jirayr Sefilyanın "Kremlin bir gün öncə Paşinyandan canını qurtarmaq qərarı var idi" açıqlaması dezinformasiyadır, bununla bağlı heç bir qərar mövcud deyil: "Moskva obyektivdir və Paşinyanın bütün bəyanatları ilə tanışdır. O, bir-birinə zidd bəyanatlar verir və Paşinyanın nə istədiyini, nə demək istədiyini, nəyi nəzərdə tutduğunu dəqiq başa düşə bilmirik. Məsələn, Qarabağla bağlı bəyanatı mənim üçün anlaşılmaz olaraq qalmaqdadır. Paşinyanın fikrincə, Qarabağdakı qondarma qurum danışıqlarda iştirak etməlidir, digər tərəfdən Qarabağla Ermənistanın bir olduğunu, Qarabağın Ermənistan olduğunu deyir. Əgər bir şey etmək istəyirsənsə, danışıqların formatını dəyişdirmək istəyirsənsə, dəyişməyə çalış, indiki formatdan imtina et, yox əgər dəyişmək istəmirsinizsə, niyə Qarabağdakı rejimin danışıqlara qayıtmalı olduğunu söyləyirsiniz? Əksinə, danışıqlar prosesi əvvəlki hakimiyyətin dövründə olduğu kimi davam edir, konkret addımlar atılmır, heç nə dəyişməyib". Tarasov bu ziddiyətli açıqlamalara əsas səbəbi kimi Ermənistan xarici siyasətinin daha çox əyalət xarakterli olması ilə izah etməyə çalışıb: "Ermənistan bölgədəki çağırışlarla hesablaşa bilmir. Paşinyan bütün ermənilərin lideri olmağa çalışdığına dair bəyanat verir, bəs bunu ermənilər istəyirmi? Bizim bunu bəyənib-bəyənməyəcəyimizdən asılı olmayaraq, Paşinyan konkret nə istədiyini deyərsə, rus tərəfi bunu dəyərləndirəcək. Ancaq o konkret bir şey deməyincə məsələ açıq qalır". Tarasov Ermənistan hökumətinin bölgədəki çağırışlarla hesablaşa bilməməsinə səbəb kimi Paşinyanın məsələhətləşmə aparatının çox zəif olmasını göstərib: "Problem onun müşavirlərindən, analitik xidmətin yoxluğundan qaynaqlanır. Sanki nəyisə oxuyub, reallığa çevirməyə cəhd etdikləri təəssüratı yaranır. Hakimiyyət daxilində müasir yanaşmalı gənclər olsa da, düşüncə, yenilik tərzi baxımından Serj Sarkisyanın komandasından çox geri qalırlar. Paşinyan bu yaxınlarda verdiyi müsahibəsində qeyd etmişdi ki, Rusiya hər zaman şübhə etmək hüququna sahibdir və niyə heç kim Ermənistan-Rusiya münasibətlərində qarşılqlı şübhə olub-olmadığını düşünmür. Amma ona xatırladım ki, Rusiya Sovet İttifaqı deyil, imperiyadır və öz prioritetləri, maraqları var. Rusiya böyük dövlətdir, şübhələri varsa, yaxud Rusiyaya etirazı varsa, o halda qoy özünə yeni müttəfiq tapsın. Başqa müttəfiq tapmağa ona kim mane olur? Amma Rusiyanın müttəfiqliyini itirdikdən sonra Ermənistan meydanda çox pis durumda qalacaq".

Rusiyalı politoloq bir daha vurğulayıb ki, Paşinyanın konkret nə istədiyini və hara getdiyini nə üçün bəyan etmədiyini başa düşmür: "Qoy desin bəli, mən istəyirəm NATO, ABŞ-la əməkdaşlıq edim, Avropa ilə işləyim. Belə olan halda hər şey aydın olacaq. Ancaq göründüyü kimi, heç bir konkret şey deyilmir. Serj Sarkisyan hakimiyyəti dövründə dəqiq mövqe vardı və Rusiyanı bəyənib-bəyənmədiyindən asılı olmayaraq bununla hesablaşırdı". Maraqlıdır ki, erməni ekspert Armen Ovasapyan da Tarasovla tam şəkildə razılaşdığını bildirir: "Paşinyan artıq 1 il yarımdır ki, ölkənin rəhbəridir. Ancaq buna baxmayaraq, dövlət və dövlətçiliyin, hakimiyyətin nə olduğunu, bundan irəli gələn bütün nəticələri və funksiyaları hələ də başa düşməyib. Əsl dövlətin nə olduğunu anlamayaraq, ilk baxışda süni görünən bu qarışıqlığı getdikcə dərinləşdirir". Ekspert Paşinyanın "Nouvelle d'Arm?nie" jurnalına verdiyi geniş müsahibəni şərh edib. Müsahibədə Paşinyan qeyd edib ki, Qarabağdakı qondarma qurumdakı "hakimiyyət" uzun müddət keçmiş hökumətlə hər cür nəticələri ola biləcək şəkildə işləsə də, hazırkı hökumətlə müəyyən məsələlərdə fikir ayrılığı mövcuddur. O, fikir ayrılıqlarını aradan qaldırmağın ən yaxşı yolu kimi gələn il işğal olunmuş Azərbaycan torpaqlarında keçiriləcək "seçkiləri" görür. Erməni ekspert bu xüsusda bildirib: "Onun sözlərindən aydın görünür ki, Paşinyanın özü Ermənistan-Qarabağ münasibətlərində mövcud süni, saxta gündəliyə xidmət göstərir. Paşinyan Qarabağın fəaliyyətdə olan "hakimiyyəti"nin Ermənistanın keçmiş hakimiyyəti ilə əlaqəsi olub dedikdə, bunun növbəti yalan məlumat olduğu anlaşılandır. Paşinyan Samvel Babayanın əli ilə Qarabağ "konstitusiyası"nda dəyişikliklər etməklə Ermənistandan "desant" endirmək niyyətindədir". Erməni ekspert vurğulayır ki, indi Paşinyan ona qarşı müqaviməti həm də "Sasna Tsrer" vasitəsilə neytrallaşdırmaq niyyətindədir. Amma "Sasna Tsrer"in Qarabağ məsələsinə də müdaxiləsi və işğal edilmiş ərazilərdə Paşinyanın rəqbilərini güc yolu ilə aradan qaldırmaq niyyəti artıq xoatik bir durum yaradır. Bu artıq Qarabağ məsələsində terrorçuların iştirakına birbaşa şərait yaradılması anlamına da gəlir. Məhz bu vəziyyət məsələnin dinc həllini mümkünsüzləşdirir və Azərbaycanın zəbt edilmiş ərazilərində antiterror əməliyyatlarına başlamasını şərtləndirir. Elə erməni siyasi şərhçi Armen Badalyanın fikirləri də qeyd edilənlərin qaçılmaz olduğunu deməyə əsas verir. Badalyanın sözlərinə görə, "Sasna Tsrer"in Ermənistandakı və Qarabağdakı siyasi mübarizədə yenidən silahla iştirak etməsi yeni reallıqlar ortaya çıxarır: "Düzdür, silah məsələsinə gəlsək, Paşinyanın daha çox silah sayı var və onlara yardım üçün çağırış etməsi bu mənada anlaşılmazdır. Digər tərəfdən məlumdur ki, "Sasna Tsrer"lə Paşinyanın görüşünün əsas məqsədi Jirayr Sefilyanın nə etməsindən asılı olmayaraq Qarabağ "seçkiləri"dir". O qeyd edib ki, "Sasna Tsrer"in Qarabağın hazırkı "rəhbərləri"nə qarşı kifayət qədər mənfi münasibəti var və istisna edilmir ki, onlar da bu ümumi fəaliyyətdə rola malik ola bilərlər. Siyasi texnoloq onu da əlavə edib ki, Paşinyan və Sefilyanın görüşləri yaxın gələcəkdə daha intensiv xarakter daşıyacaq, çünki "seçkilərə" çox az zaman qalıb, bu müddət ərzində isə "Sasna Tsrer" Qarabağda çox şey etməlidir. Deməli, gözləmək olar ki, qarşıdakı dövr ərzində zəbt edilmiş ərazilərdə "hakimiyyət" uğrunda silahlı qarşıdurma başlasın. Bu durumda məsələyə Ermənistandan müdaxilənin artması isə "Qarabağ klanı"nın da silahlardan istifadəsini qaçılmaz edəcək. Onlara qarşı "Sasna Tsrer"in fəaliyyəti burada qeyd olunduğu kimi xaotik bir vəziyyət yaradacaq. Belə vəziyyətdə qarşı tərəfdən Qarabağ məsələsində hansısa əməli addımlar atılmasını gözləmək sadəcə vaxt itkisi sayıla bilər. Məhz bu səbəbdən belə gedişlə Azərbaycanın zəbt edilmiş ərazilərində antiterror əməliyyatlarına start verməsi qaçılmaz sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Azərbaycanda qurulan tranzit infrastruktur, ölkənin nəqliyyat imkanları artıq beynəlxalq miqyasda kifayət qədər diqqət cəlb edir. Elə bu fonda Azərbaycanın tranzit imakanlarından istifadə etmək niyyətində olan dövlətlərin say artımı da təbii qarşılanır.**

# Azərbaycanın nəqliyyat infrastrukturuna Avropanın ehtiyacı daha da artır

Belə görünür ki, yaxın tezlikdə bir sıra Avropa ölkələri də Azərbaycanın tranzit infrastrukturundan yararlanmağa başlayacaq. Xatırladaq ki, daha əvvəl qeyd olunan xüsusda Rumıniya öz marağını ifadə edib. Latviyanın iqtisadiyyat naziri Ralf Nemiro da indi ölkəsinin adından analoji maraqlarını bildirib. Onun sözlərinə görə, "Bir kəmər - bir yol" təşəbbüsü Azərbaycanla Latviya arasında yeni tranzit imkanları açа bilər.

Azərbaycanın Avropanın nəqliyyat imkanlarının yaxşılaşdırılmasına töhfəsindən danışan nazir Bakı-Tiflis-Qars dəmir yolunun vacibliyini vurğulayıb: "Bakı-Tiflis-Qars dəmir yolu xətti Azərbaycan üçün Şərq-Qərb tranzit dəhlizində vacib elementdir. Gələcəkdə bu dəmir yolu Çin və Mərkəzi Asiyadan Azərbaycan, Gürcüstan və Qara dəniz vasitəsilə Cənubi Avropaya yeni tranzit marşrutlarının inkişafına xidmət edəcək". Nazir bildirib ki, "Şərq-Qərb" nəqliyyat dəhlizinin inkişafı Latviya üçün vacib olsa da, ölkə Avropanın şimal hissəsinə qapı rolunu oynayır: "Latviya "Bir kəmər - bir yol" təşəbbüsü çərçivəsində Çinlə fəal əməkdaşlıq edir. Bu təşəbbüs, eləcə də Avrasiyada logistika zəncirinin digər marşrutları Azərbaycanla Latviya arasında yeni tranzit imkanları aça bilər. Biz hesab edirik ki, mövcud "Şərq-Qərb" marşrutları Qara dəniz və Latviya limanları arasındakı "Şimal-Cənub" marşrutları ilə bağlana bilər". məsələyə münasibət bildirən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban deyir ki, Azərbaycan Bakı-Tiflis-Qars layihəsini gerçəkləşdirməklə regionda mövqelərini gücləndirmək yolunda yeni bir addım atdı: "Bu layihə Azərbaycanın nüfuzunun Xəzərin sağ sahilinə yayılmasında müstəsna əhəmiyyətə malik olacaq. 2018-ci ildə sənaye obyektlərinin işə düşməsi ilə Azərbaycanın ixrac potensialı artacaq. Bakı-Tiflis-Qars onun logistikasının əsas elementi olacaq".

Digər ekspertlər Avropada da Bakı-Tiflis-Qarsa artan marağı təsadüfi saymır. Məlumdur ki, Bakı-Tiflis-Qars işə düşənə qədər Asiyadan Avropaya yüklərin çox hissəsi dəniz yolu, daha doğrusu, Süveyş kanalı vasitəsilə daşınıb. Amma bu marşrutla daşınan yüklərin nəqliyyat xərcləri baha başa gəldiyi üçün istehsalçı və alıcılara sərf etmir. Hazırda 21 min kilometr məsafəni 30-35 sutkaya qət etməklə bir konteyneri sifarişçilərə 850 dollara çatdırmaq mümkündür. Amma Bakı-Tiflis-Qarsla yüklərin daşınması həm ucuz, həm də qısa vaxta başa gəlir. Beləliklə, Bakı-Tiflis-Qarsın işə düşməsi Avrasiyada yükdışmalarla bağlı tamamilə yeni vəziyyət yaradıb. Çin və digər Asiya ölkələrinin, o cümlədən Avropanın bu xəttə marağı gedərək artır. Bu da təsadüfi deyil. Belə ki, ənənəvi marşrutlarla Çindən İngiltərə, Fransa, Almaniya kimi ölkələrə yükdaşıma müddəti təxminən 45-62 gündür. Bakı-Tiflis-Qars isə həmin yükləri 12-15 gün arasında Avropaya çatdırmaq imkanına malikdir. Bundan başqa, dəmir yolu ilə yüklərin daşınmasının maya dəyəri də aşağıdır. Qeyd edilən faktor, sözsüz ki, Bakı-Tiflis-Qarsa marağı daha da artırır.

Ümumiyyətlə, ekspertlər hesab edir ki, Bakı-Tiflis-Qars dəmir yolu Avrasiya məkanındakı bütün polad magistralların birləşdiricisi funksiyasına malikdir. Real vəziyyət də təsdiqləyir ki, Bakı-Tiflis-Qars marşrutu Qafqaz bölgəsini və Mərkəzi Asiya məkanını Cənubi Avropa və Cənub-Şərqi Asiya ölkələri ilə birləşdirən ən səmərəli xətdir. Digər tərəfdən bu dəmir yolu Türkiyədən keçməklə Cənubi Avropaya birbaşa birləşir. Yaxın gələcəkdə bu dəmir yolunun bütün Avropa və Cənub-Şərqi Asiya ilə birləşməsində problemlər görünmür. Bu polad magistral Avrasiyada bütün ölkələrin idxal və ixrac maraqlarını tamamlayır. Hazırda tikintisi uğurla aparılan "Şimal-Cənub" nəqliyyat dəhlizi isə Bakı-Tiflis-Qarsın əhəmiyyətini daha da artırır. Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinin istifadəyə verilməsi ilə Bakı-Tiflis-Qars üzərindən daşınan yüklərin həcmi artır. Bundan başqa, Qəzvin-Rəşt dəmir yolunun davamı olan Rəşt-Astara dəmir yolu tezliklə istismara veriləcək. Bu isə Bakı-Tiflis-Qarsla daha böyük həcmdə yük daşınmasını şərtləndirəcək. Belarusun, Baltikyanı dövlətlərin və Finlandiyanın "Şimal-Cənub" dəhlizinə maraq göstərmələri isə Bakı-Tiflis-Qarsın perspektivlərini daha da artırır. Belə ki, "Şimal-Cənub" dəhlizi Hindistan-İran-Azərbaycan-Rusiya-Skandinaviya və Şimalı Avropa marşrutu üzrə fəaliyyət göstərir. Bu fonda qeyd edək ki, Bakı-Tiflis-Qars dəmir yolu və "Şimal-Cənub" dəhlizi sayəsində keçmiş SSRİ məkanından Azərbaycana daxil olan qatarların qısa zaman kəsiyində İran və Anadolu məkanına çatması təmin olunub.

Digər tərəfdən, Çin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində bütün diqqəti məhz Bakı-Tiflis-Qarsa yönəldib. Pekin burada onu da nəzərə alır ki, Çindən gələn malların Avropaya daşınması üçün Azərbaycanda mükəmməl infrastruktur yaradılıb. Ölkəmizin Qazaxıstanın Aktau limanından yükləri daşımaq üçün 260 gəmidən ibarət güclü donanması var. Eyni zamanda, bu yüklərin boşaldılması və yola salınması üçün Ələtdə beynəlxalq əhəmiyyətli liman tikilib. Limandan yüklərin Avropa ölkələrinə daşınması üçün Bakı-Tiflis-Qars fəaliyyət göstərir. Elə bu səbəbdən Çinlə böyük iqtisadi əlaqələrə malik Avropa diqqəti daha çox Bakı-Tiflis-Qarsa yönəldir. Bu sıraya Rusiya da qoşulub.




Çünki Rusiyanın Cənubi Avropa ölkələri ilə birbaşa quru sərhədi yoxdur. Rusiya Cənubi Avropaya qurudan Baltikyanı ölkələr, Ukrayna və yaxud Belarus vasitəsilə çıxa bilir. Amma Baltikyanı ölkələr, Ukrayna ilə Rusiyanın münasibətləri məlumdur. Ona görə də Kreml də diqqəti bu Azərbaycanın dəmir yolu xəttinə yönəldir. Eləcə də zəngin təbii ehtiyatlara malik Rusiya tarixdə ilk dəfə, məhz Bakı-Tiflis-Qars dəmir yolu vasitəsilə Yaxın Şərqə və Afrikaya dəmir yolu ilə çıxış perspektivi əldə edib. Bütün bunlar Bakı-Tiflis-Qarsa marağın daha da artmasıan rəvac verən amillərdən sayılır.

***Tahir TAĞIYEV***

**Azərbaycanda bütün dini bayram və hüzn günləri ölkəmizin qanunvericiliyinə uyğun şəkildə keçirilir. İslam dünyasında, xüsusən də şiə təriqətinə mənsub olan müsəlmanlar tərəfindən qeyd edilən Aşura mərasimi Azərbaycanda da təşkil olunur. Aşura Məhərrəm ayının 10-cu günüdür, İmam Hüseynin, onun ailə üzvlərinin və tərəfdarlarının qətl olunduğu gün olaraq hüznlə anılır.**

# Aşura mərasimlərinin ifrat radikal adətlərdən təmizlənməsi cəmiyyətin tələbinə çevrilməyə başlayır

***Hacı Təyyar Hüseynli:*** *"İndiyə qədər görülən maarifçilik tədbirləri çərçivəsində bəzi ifrat radikal rituallar aradan qaldırılıb, amma bu, sistemli şəkildə davam etdirilməlidir"*



*"Azərbaycanda Aşura məclislərinin təşkili üçün, sözün əsl mənasında, dövlətçi, milli məfkurəli, sistemli, qayda-qanunlu vahid bir tədbirlər planı hazırlamaq lazımdır"*

Onu da vurğulayaq ki, hicri təqvimi ilə 61-ci ildə İmam Hüseyn və silahdaşları Kərbəlada şəhid edilib və şiələr bu günü yas günü kimi matəm saxlayır və əzadarlıq edirlər.

Bildiyimiz kimi, dünyanın müxtəlif ölkələrində Aşura günündə başyarma, zəncirvurma və digər ifrat radikal ayinlər icra edilir. Hətta bir sıra ölkələrdə Aşura mərasimlərinə xüsusi hazırlanır və burada İmam Hüseynə və onun silahdaşlarına, ailə üzvlərinə mərsiyələr oxunur, ağlar deyilir. Azərbaycanda da bir neçə il bundan əvvələ qədər bəzi məscidlərdə başyarma, zəncirvurma, sinədöymə kimi hallar baş verirdi. Özlərini İmam Hüseyn aşiqləri sayan müəyyən insanlar bu ifrat radikal hərəkətlərə yol verir, ümumiyyətlə, bunu təbliğ edirdilər.

Lakin Qafqaz Müsəlmanları İdarəsinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin həyata keçirdiyi silsilə maarifləndirici tədbirlərdən sonra ölkəmizdə bu kimi halların başvermə səviyyəsi azalıb. Kiçik istisnaları nəzərə almasaq, demək olar ki, məscidlərdə bu kimi hallar baş vermir.

Qeyd edək ki, Məhərrəm ayı sentyabrın 1-də başlayıb. Məhərrəm ayı öncəsi də, sonra da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dəfələrlə bəyan ediblər ki, Məhərrəm ayında, xüsusən də Aşura günündə heç bir ifrat radikal davranışlara yol verilməməlidir.

Onu da bildirək ki, Dini Komitə Qafqaz Müsəlmanları İdarəsi ilə birgə Məhərrəm ayı ilə bağlı monitorinqlər həyata keçirir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, monitorinqlərə əsasən, məscidlərdə Məhərrəm ayı ilə bağlı keçirilən mərasimlər Qafqaz Müsəlmanları İdarəsinin fətvasına uyğun olmalıdır: "Monitorinqin əsas məqsədi odur ki, bu mərasimlərin fətvaya uyğun keçirilib-keçirilmədiyi, hər hansı qanun pozuntusunun olub-olmadığı yoxlanır. Bütün bu məlumatları toplayırıq və birgə müzakirə edirik. Əgər hər hansı məsciddə fətvadan kənaraçıxma halları və yaxud qanun pozuntusu olarsa, bununla bağlı müvafiq tədbirlər görülür. Qafqaz Müsəlmanları İdarəsi tərəfindən həmin məscidin imamına xəbərdarlıq olunur ki, bunlar təkrar olunmasın. Hələ ki elə bir ciddi qanun pozuntusu aşkar etməmişik, fətvaya uyğun şəkildə mərasimlər keçirilir".

Komitə sədri vurğulayıb ki, əsas mərasim Aşura günü olan mərasimdir: "Həmin gün Qafqaz Müsəlmanları İdarəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri, eyni zamanda, ayrı-ayrı dini konfessiyaların nümayəndələri Şeyxülislam Allahşükür Paşazadənin iştirakı ilə qanvermə aksiyasında iştirak edəcəklər. Mən də həmin qanvermə aksiyasında iştirak edəcəyəm. Aşura günü ilə bağlı keçirilən mərasimlərdə bəzən qançıxarma, başyarma, zəncirvurma kimi hərəkətlərə yol verilir. Bu hərəkətlər dinimizdə də bəyənilmir. Ona görə bunun əvəzinə qanvermə aksiyaları keçirilir".

M.Qurbanlı, həmçinin, qeyd edib ki, eyni zamanda, respublika üzrə qanvermə keçiriləcək yerlərin siyahısı artıq elan edilib: "Səhiyyə Nazirliyi bununla bağlı müvafiq göstərişlər verib, qruplar ayrılıb. Həmin aksiyalarda vətəndaşlarımızın iştirak etməsi olduqca əhəmiyyətlidir. Əminəm ki, qan verənlərin sayı kifayət qədər yüksək olacaq. Ötən il 5000-dən çox vətəndaş qanvermə aksiyasında iştirak edib. Bunun müsbət tərəfi hamıya məlumdur, çünki qana ehtiyacı olan xəstələr var. Verilən qanlar tibbi nöqteyi-nəzərdən yoxlanıldıqdan sonra qan bankına daxil edilir".

İlahiyyatçı Hacı Təyyar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, Aşura mərasimində ifrat radikal tədbirlərin qarşısının alınması əhəmiyyətlidir. O hesab edir ki, Aşur mərasimləri keçirilərkən QMİ-nin və Dövlət Komitəsinin, o cümlədən də Azərbaycan dövlətinin qanunvericiliyi nəzərə alınmalıdır. "Aşura günü mərasiminin təşkili ilə bağlı illərdir sistemli qərar yox idi. Lakin son illər bu istiqamətdə cənab şeyxin timsalında bir sıra nümunələr var. Yadımdadır ki, o, bir neçə il əvvəl məscidlərə gedərək zəncir vurmanın və digər halların yolverilməz olduğunu dedi. O bildirdi ki, zəncir vurmanın, qançıxarmanın, eləcə də digər məsələlərin nə insanlara, nə də Kərbala hadisəsinin mahiyyətinə heç bir xeyri yoxdur. Cənab şeyx dindarları qanvermə aksiyasında iştirak etməyə çağırmışdı. Kərbəlada İmam Hüseyn və tərəfdarları dinimiz uğrunda həyatını qurban vermişdi. Bizim şəhidlərimiz kimi, İmam Hüseynin də şəhidliyi dəyərlidir. Burada faydalı bir məsələdən söhbət getməlidir. Həm şeyximiz, həm komitə sədri Aşura günü qanvermə aksiyalarında iştirak ediblər. Həqiqətən, Kərbəla hadisəsinin mahiyyətini dövlətimiz də yüksək qiymətləndirib. Ümummilli liderimiz Aşura günü Təzə Pir məscidinə gedib və orada İmam Hüseyn əleyhisalamdan danışıb. Bu gün həm cənab Prezident, həm də ölkəmizin Birinci vitse-prezidenti də İmam Hüseyn şəhidliyinə dəyər verir. Bir sözlə, Azərbaycanda Aşura gününə ümumxalq hüzn mərasimi olaraq münasibət bildirilib və Peyğəmbər ailəsinin faciəsinə böyük ehtiramla yanaşılıb. Bu gün məscidlərdə Aşura günü təşkil olunur, lakin bu mərasim qonşu ölkələrdən fərqli şəkildə qeyd edilir. Bu onlarda tamam fərqlidir. Azərbaycanda da Aşura günü mərasimlərinin təşkili üçün bir sistem olmalıdır. Orada şifahi xalq ədəbiyyatından gələn və xüsusi hüznlü səslə oxunan mərsiyələr, nöhələr bütün ölkə boyu tənzimlənməlidir. Yəni pərakəndə şəkildə hər kəs o mərsiyələri, nöhələri öz bildiyi kimi oxumamalıdır. Burada qəribə hallar müşahidə edilir. Bəzən o mətnlər çərçivəsindən çıxarılaraq oxunur. Ümumiyyətlə, bu kimi hallar Kərbəla hadisəsinin özünün mahiyyətinə xələl gətirər. Bilirsiniz, bəzən o ritualların içində də bir qarışıqlıq yaratmaq cəhdləri, təhlükəli gizlin fikirlər ola bilər. Bu gün bəzi qüvvələr Azərbaycanda dövlət və cəmiyyət arasında ziddiyyət yaratmaq, nifrət qaynağı formalaşdırmaq üçün psixoloji personaj yaratmaq istəyirlər. Guya kimlərsə yezid tərəfdəndir. Əslində isə bütün Azərbaycan vətəndaşları Azərbaycan tərəfdəndir və haqq-ədalət yolundadır. Bütün cəmiyyətimiz haqq-ədalətin yanındadır. Azərbaycanda Aşura məclislərinin təşkili üçün, sözün əsl mənasında, dövlətçi, milli məfkurəli, sistemli, qayda-qanunlu vahid bir tədbirlər planı hazırlamaq lazımdır. Təsəvvür edin ki, bütün məscidlərdə bir monitorinq keçiririk və orada insanlar "ya Hüseyn, vay Hüseyn" deyirlər, onu başa düşərək də, başa düşməyərək də deyənlər var. "Ya Hüseyn" Azərbaycan dilində "ey Hüseyn" deməkdir, Hüseyn 57 yaşında şəhid olub. Hətta təəssüf ki, İmam Hüseyn şəhidliyinin mahiyyətinə xələl gətirmək istəyənlər də var. Adlarını çəkmək istəmirəm, bəziləri deyirlər ki, Kərbəla hadisəsi hakimiyyət uğrunda bir mübarizə idi. Bunun özü də çirkli toxum əkməkdir".

H.T.Hüseynli qeyd etdi ki, gələn Aşuraya qədər ümumrespublika məscidlərində hər hansı danışılan söz, oxunan mərsiyə və nöhə belə incələnməlidir. "Bu sahədə Qafqaz Müsəlmanları İdarəsinin və Dini Komitənin həyata keçirdiyi tədbirlər daha geniş miqyas almalıdır. Doğrudur, indiyə qədər görülən maarifçilik tədbirləri çərçivəsində bəzi ifrat radikal rituallar aradan qaldırılıb, amma bu, sistemli şəkildə davam etdirilməlidir. Amma hesab edirəm ki, Aşura mərasimləri zamanı məscidlərdə oxunan hər bir mərsiyə, nöhə, edilən çıxış diqqətdə saxlanmalıdır. Tövsiyə edərdim ki, məscidlərdə "ya Hüseyn" sədalarını eşidib insanlar sinələrinə vurmasınlar. Yaxud özlərini zəncirləməsinlər. Zəncirin simvolok mənası var. Onu o vaxt atın buduna vururdular ki, at isti havada daha sürətlə qaçsın. Zənciri həm də xanım Zeynəb əleyhisalama, Kərbəla əsirlərinə, qadın və uşaqlara Yezidin ordusu vururdu. Zənciri ata-babalarımız simvolik olaraq götürüblər və Yezidin onların başına gətirdiyi oyunları ifadə edirlər, yaxud da görürsən ki, qılıncı çəkib başlarını yarırlar, olmaz, boş başı nə qədər partlatmaq olar. Yaxud birisi bilmədiyi mövzuda nə qədər danışmalı və özünü çırpmalıdır? Bu rituallar varsa və məntiqlidirsə, onların aşırı dərəcədə, ifrat şəkildə icrasına yol verilməməlidir" - deyə o qeyd etdi.

O, həmçinin, Dini Komitə və QMİ-nin Aşura günü məscidlərdə keçirəcəyi monitorinqin də faydasız olmadığını dedi.

***İradə SARIYEVA***

# Gəncənin mərkəzində Əhməd Cavadın barelyefi var idi, indi yoxdur...

**Gəncədə istiqlal şairi Əhməd Cavadın xatirə lövhəsinin yoxa çıxdığı bildirilir. Bu barədə məlumatı həmin küçədə yaşayan sakinlər sosial şəbəkələr vasitəsilə ictimailəşdiriblər. Bildirilir ki, istiqlal şairi, maarifçi, Azərbaycan Dövlət Himninin müəllifi Əhməd Cavadın Gəncə şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti ev 495 (keçmiş Zərdabi küçəsi) ünvanında yerləşən binanın fasadına vurulan xatirə lövhəsi yoxa çıxıb.**

***Naqif Həmzəyev:** "Sizi əmin edirəm ki, tədbirlər bitən kimi bu məsələ müsbət mənada öz həllini tapacaq"*

***Sənan Məhərrəmov:** "Hazırda həmin evdə özəl bağça yerləşir, son təmiri də onlar edib"*




Ərazidə yaşayan sakinlərin bildirdiyinə görə, tarixi binanın fasadı 2017-ci ildə İcra Hakimiyyəti tərəfindən təmir edilərkən xatirə lövhəsi götürülüb. Həmin müddətdən bu günə qədər lövhə öz yerinə qaytarılmayıb.

Əsərləri dövlət varidatı elan edilən, repressiya qurbanı olan şair Əhməd Cavad 1906-cı ildən ömrünün sonuna qədər Gəncədə həmin evdə yaşayıb. Azərbaycan Dövlət Himninin sözlərini də məhz həmin evdə yazıb.

Azərbaycanın görkəmli yazıçısı və ictimai xadimi Əhməd Cavadın xatirə lövhəsinin niyə yerinə quraşdırılmadığını araşdırmaq qərarına gəldik.

Gəncədən millət vəkili seçilən Naqif Həmzəyevlə əlaqə saxladıq. O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məsələ barədə məlumatı var: "Mənə də bu barədə məlumat verilib. Dərhal Gəncə İcra Hakimiyyətinə millət vəkili kimi sorğu etmişəm. Hələlik baş Məhərrəmliklə bağlı Aşura tədbirlərinə qarışıb. Həmn tədbirlər bitəndən sonra bu məsələ barədə ətraflı məlumat alacam. Çünki mən rəsmi mövqeyə əsaslanmalıyam. Hətta büst və ya barelyef orada yoxdursa belə, bunun niyə yerinə qoyulmadığı barədə rəsmi cavab alandan sonra nəsə deyə bilərəm. Ancaq sizi əmin edirəm ki, tədbirlər bitən kimi bu məsələ müsbət mənada öz həllini tapacaq. Əhməd Cavad xalqımızın qürur duyduğu milli ziyalımızdır. Ona qarşı Gəncədə hər hansı ögey münasibət ola bilməz. Nəsə olubsa da, texniki məsələlərlə bağlıdır. Bir daha qeyd edirəm ki, şəxsən bu məsələ ilə məşğul oluram".

Biz Gəncə Şəhər İcra Hakimiyyəti ilə də əlaqə saxlayıb, bu məsələyə aydınlıq gətirmək qərarına gəldik. Şəhər təsərrüfatı şöbəsinin əməkdaşı Sənan Məhərrəmov qəzetimizə açıqlamasında bildirdi ki, həmin məsələ ilə maraqlandıqdan sonra məlum olub ki, orada nə kommunal, nə də təssərüfat idarəsi heç bir iş aparmayıb: "Bizim üçün də bu maraqlı məlumat oldu. Maraqlandım, bildirdilər ki, hazırda həmin evdə özəl bağça yerləşir. Evin icarə götürüldüyü və ya alındığı barədə nəsə deyə bilmərəm. Son təmiri də onlar edib. Yəni orada hansısa dövlət qurumu iş aparmayıb. İstənilən halda, bununla daha geniş maraqlanıb sizə məlumat verəcəyik".

Əslində, hansısa özəl qurumun da belə bir addım atması şəhərin rəsmi qurumlarını məsuliyyətdən azad etmir. Çünki son iki il müddətində Əhməd Cavadın xatirə lövhəsi oradan hətta özəl qurum tərəfindən götürülübsə və buna reaksiya verilməyibsə, burada ən böyük məsuliyyət elə İcra Hakimiyyətinin üzərinə düşür.

*Məhəmmədəli QƏRİBLİ*

# Marşrut avtobuslarında mərsiyə qoymaq düzgündürmü...

**Məhərrəmlik ayı başlayandan Bakı və Bakıətrafı ərazilərdə fəaliyyət göstərən bəzi avtobuslarda sərnişinlərə mərsiyə dinlədilir. Bununla bağlı sərnişinlər sosial şəbəkələrdə məlumat veriblər. Onlar bu cür musiqilərdən narahat olduqlarını dilə gətiriblər. Qeyd etdiyimiz kimi, bu hal daha çox Bakıətrafı ərazilərə hərəkət edən avtobuslarda qeydə alınır.**



"Koroğlu" metrostansiyasından Binə qəsəbəsinə gedən 160 saylı avtobusda da analoji hal yaşanır. Sərnişinlər bununla bağlı narazılıqlarını bildirsələr də, avtobus sürücüsü onlara əhəmiyyət vermədən yoluna davam edib.

Nəzərə almaq lazımdır ki, Azərbaycan qatı islam ölkəsi deyil. Əhalinin 95 faizinin müsəlman olmasına baxmayaraq, Azərbaycan şəriət dövləti sayılmır. Bu səbəbdən də ictimai məkanlarda və ya hər kəsin istifadə etdiyi nəqliyyat vasitələrində dini moizələr, ilahilər və ya mərsiyələrin səsləndirilməsi xoş qarşılanmır.

Məlumat üçün bildirək ki, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə əsasən, bu qanunun 1-ci maddəsinin tələbləri, yəni hər kəsin hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ nəzərə alınmaqla, ibadətlər, dini ayinlər və mərasimlər ibadətgahlarda və onlara məxsus ərazidə, ziyarətgahlarda, qəbiristanlıqlarda, dini qurumların idarələrində, vətəndaşların mənzillərində və evlərində maneəsiz keçirilir. İbadətgahlardan kənarda, ictimai yerlərdə dini şüarların, dini moizələrin səsləndirilməsi qadağandır. Qanunun məntiqi mənasına görə, qanunda nəzərdə tutulan yerlərdən kənarda dini ayinlərin icra edilməsi, səsləndirilməsi və s. ictimai narahatlığa səbəb olduğu hallarda bu cür hərəkətlərə manеə yaradıla bilər.

***Mais Ağayev:** "Sərnişinlərin ictimai nəqliyyatdan rahat istifadəsini təmin etmək üçün bununla bağlı daşıyıcılara xəbərdarlıq olunacaq"*

***İsmayıl Əhməd:** "Məhərrəmlik və digər aylarda avtobus, taksilərdə dini moizələrin səsləndirilməsi düzgün deyil"*

Onu da qeyd edək ki, ictimai yerlərdə yüksək səslə istər dini, istərsə də digər janrlarda musiqi səsləndirmək qanunla qadağandır.

Məsələ ilə bağlı qurumun mətbuat xidmətinin rəhbəri Mais Ağayev qeyd etdi ki, məlum fakt araşdırılacaq. O, bildirib ki, sərnişinlərin ictimai nəqliyyatda rahat istifadəsini təmin etmək üçün bununla bağlı daşıyıcılara xəbərdarlıq olunacaq.

İlahiyyatçı İsmayıl Əhməd bildirdi ki, insanlara xidmət göstərən şəxs özünü deyil, xidmət göstərdiyi şəxslərin rahatlığını düşünməlidir: "Məhərrəmlik və digər aylarda avtobus və ya taksilərdə dini moizələrin səsləndirilməsi düzgün deyil. Avtobusda əyləşən şəxslər mənzil başına çatana qədər həmin mərsiyəni dinləmək məcburiyyətində deyillər. Sərnişinlərin narazılığına səbəb olan mərsiyələrin səsləndirilməsinə yol verilməməlidir. Avropa ölkələrində yüksək səslə hər hansı bir musiqi və ya səsləndirmə sərnişinlərə dinlədilmir".

İlahiyyatçı onu da vurğuladı ki, bəzən elə hal olur ki, taksi fəaliyyəti ilə məşğul olan sürücülər də sərnişinlərin iradəsinin ziddinə olaraq, maşının içərisində dini moizələrin səslənməsinə şərait yaradırlar: "Taksi fəaliyyəti ilə məşğul olan şəxsin dini moizələrə qulaq asması onun hüququdur. Ancaq bu hal sərnişini narahat edirsə, sürücü ya həmin mərsiyəni dayandırmalı, ya da elə etməlidir ki, həmin moizə nəqliyyatdan istifadə edən şəxsi narahat etməsin".

*Günel CƏLİLOVA*

**Bu günlərdə Bakıda Yusif Səfərov küçəsində çox az-az rast gəlinən bir hadisənin şahidi oldum. Nadir hadisə olmasa da, doğrusu, çox sevindim və həqiqətən təhlükəli yol keçidi edən piyadalara polislərin kömək etdiyini görməkdən qürur duydum. Belə faktlara Bakının bir çox yerlərində rast gəlinib.**

# Polisin jesti Bakıda unudulmuş bir yol problemini gündəmə gətirdi...



*Yusif Səfərov küçəsində "Sevgim" parkına keçid insan həyatı bahasına başa gələ bilər...*

Dəfələrlə Heydər Əliyev prospektində, Aeroport yolunda, Xırdalan yolunda polislərin uşaqları, yaşlı insanları əllərindən tutaraq maşınların gur hərəkət etdiyi yerlərdən keçirdiklərini görmüşdük. Əslində bu, polisin heç borcu da deyil, hətta istəsələr, keçidin nəzərdə tutulmadığı yerlərdə piyadaların yolun o tərəf-bu tərəfinə keçməsinə imkan verməyə bilərlər. Ancaq bir insanlıq borcu var ki, hər cür vəzifə səlahiyyətlərindən və qanunlardan üstün sayıla bilər. Yolu keçmək istəyən uşaq var, ağsaqqal-ağbirçək var, əlil var və sair. Əgər yol tikintisi ilə məşğul olan hansısa məmur öz işini vicdanla yerinə yetirməyibsə, yolun hansı hissəsindəsə keçid zolaqları nəzərdə tutulmayıbsa, yol keçməyə möhtac piyadanın halı necə olmalıdır? Bu piyadaların çoxunu real ölüm təhlükəsindən məhz ayrı-ayrı epizodlarda polislərin insanlığı xilas edir.

Bakıda Yusif Səfərov küçəsində Baş Polis İdarəsi ilə üz-üzə gözəl və yaraşıqlı "Sevgim" parkı salınıb. Həqiqətən gözəl parkdı. Burada keçirilən vaxt üçün təəssüflənməyə, təbii ki, dəyməz. Ancaq istirahət xatirinə həyatı təhlükədə qoymaq qorxusu çox uşaqları, valideynləri bu parkın imkanlarından bəhrələnməkdən məhrum edir. Yol tikintisində buraxılmış nöqsanların ağır nəticəsini bütün hallarda polislər çəkəsi deyil ki... Baş Polis İdarəsinin alt və üst tərəflərində çoxlu sayda çoxmərtəbəli yaşayış binaları var və demək olar ki, hamısı məskunlaşıb. Təsəvvür edin ki, vətəndaşlar Baş Polis İdarəsi ilə üz-üzə olan "Sevgim" parkına keçmək üçün Yusif Səfərov küçəsi boyunca Neftçilər Xəstəxanasına qədər uzun bir yol keçməli, xəstəxananın önündəki keçidlə yolun qarşı tərəfinə keçməli və yenidən avtobusa oturaraq "Sevgim" parkına və digər yerlərə getməlidir. "Sevgim" parkının yanında da dayanacaq var. Vətəndaşların heç də hamısı Neftçilər Xəstəxanasınadək gedib keçiddən keçməyə həvəsli olmur, "niyə bu qədər yolu getməliyəm" sualını verənlər də olur, təhlükəli yerdə yolu birbaşa keçmək istəyənlərin hamısına polis imkan verə bilməz, polislərin hamıya kömək etmək, əlindən tutub yol keçirmək imkanı da yoxdur. Bəs nə etməli?

Sakinlər məhz həmin yerdə - "Sevgim" parkının qarşısında piyadaların vurulması kimi hallların olduğunu da bildirdilər və çıxış yolları da təklif etdilər. Sakinlərin fikrincə, Yusif Səfərov küçəsində "Sevgim" parkına keçid üçün, heç olmasa, işıqfor və zolaqlı keçid quraşdırmaq, ya da yüngül konstruksiyalı yerüstü keçid inşa etmək olar. Həqiqətən də daha "qlobal" olan yeraltı keçiddənsə, bu təkliflər daha asan və real görünür. Təklif reallaşsa, sakinlərin beş addımlıqdakı dayanacağa keçidi daha rahat olar, bədbəxt hadisələrdən hər kəs sığorta olunar, polislər isə təhlükəli yerdən keçmək istəyən və buna məcbur sakinlərə yardım göstərmək kimi çətinlik qarşısında qalmaz.

Gözləyək, rəsmi orqanların reaksiyasını...

***Namiq QULİYEV***

**Xəbər verildiyi kimi, Xınalığın yeni konservasiya və inkişaf konsepsiyası hazırlanır. Bu barədə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev media nümayəndələrinə açıqlamasında bildirib. Onun sözlərinə görə, sözügedən konsepsiya yaxın müddətdə ölkə rəhbərliyinə təqdim olunacaq: "Xınalığı qarşıda böyük yeniliklər gözləyir".**

# Xınalığın turizm mərkəzinə çevrilməsi layihəsi yaxınlarda təsdiqlənə bilər



***Çingiz İsmayılov:** "Dağ kəndlərinin, xüsusilə də Xınalığın turizm baxımdan inkişaf etməsi üçün konsepsiyanın hazırlanması məqsədəuyğundur"*

Məlumdur ki, turistlər daha çox getdikləri ölkənin qədim yaşayış məskənləri, tarixi abidələri, arxeoloji qazıntıları, əsasən də təbiəti ilə maraqlanırlar. Belə yerlərdən biri də Xınalıqdır. Xınalığın turizm mərkəzinə çevrilməsi üçün konsepsiyanın hazırlanması həmin ərazinin turizm baxımından inkişaf etməsinə səbəb olacaq.

Turizm sahəsi üzrə ekspert Çingiz İsmayılov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, unikal təbiətə malik olan bölgələr turistlərin diqqətini cəlb edir. Həmin ərazilər Xınalıq, Lahıc, İlisu və digərləridir: "Xınalığın turizm baxımından inkişaf etməsi baxımından ucqar dağ mərkəzləri üçün uyğun layihələr məqsədəuyğundur. Hesab edirəm ki, hər bir dağ kəndinin turistik baxımından inkişaf etməsi üçün xırda detallara xüsusi diqqət yetirilməlidir. Dağ kəndlərinin təbii resurs potensialı və əmək vərdişləri araşdırılmalıdır. Bununla yanaşı, müasir infrastrukturun təminat səviyyəsi nəzərə alınmalıdır ki, rəqabət üstünlükləri aydın olsun. Dağ kəndlərinin, xüsusilə də Xınalığın turistik baxımdan inkişaf etməsi üçün konsepsiyanın hazırlanması məqsədəuyğundur. Həmin konsepsiyada Xınalığa gedən yolun turistlər üçün rahat olması məqamları da yer almalıdır".

*"Dağ kəndlərinin təbii resurs potensialı və əmək vərdişləri araşdırılmalıdır"*

Ekspert hesab edir ki, Xınalıq üçün inkişaf konsepsiyasının hazırlanmasının Azərbaycan turizminin inkişaf etməsində güclü rolu olar.

***Günel CƏLİLOVA***

# General Şıxlinski 34-C ünvanında masaj salonu, ya əxlaqsızlıq yuvası - özü də 171 saylı məktəbin beş addımlığında...



**Xətai rayonu Nəsirəddin Tusi küçəsində yaşayan sakinlər masaj salonundan şikayətçidir.**

Baki-xeber.com-a yerli sakinlərin verdiyi məlumata görə, bu masaj salonu General Şıxliniski 34-C ünvanındakı binanın zirzəmisində fəaliyyət göstərir.

Sakinlər iddia edirlər ki, burada masaj salonu adı ilə əslində əxlaqsızlıq yuvası yaradıblar, obyektin qarşısında yaranan səs-küy sakinlərin rahatlığını pozur.

Ən dəhşətlisi odur ki, bu şübhəli obyekt 171 saylı məktəbin beş addımlığında yerləşir: "Hər səhər uşaqlar buradan keçib gedirlər. Hər şeyi görürlər. Səs-küy, çığırtı, içki havasına əcaib hərəkətlər edirlər. Birdən görürsən ki, çılpaq qızlar çıxıb bayırda əyləşir. Günün istənilən saatında bu əcaib və tərbiyəsi mənzərəni görmək mümkündür. Dəfələrlə gecə saatlarında bıçaqlaşmaların şahidi olmuşuq. İçki, gənc oğlanlar, əxlaqsız qadınlar olan yerdə daha nə gözləmək olar?! Dəfələrlə bəzi aidiyyəti qurumlara müraciət etsək də, nəticəsi olmayıb".

Ümid edirik ki, problemi ictimailəşdirməklə vətəndaşların haqlı şikayətinin həllini tapmasına yardımçı ola biləcəyik.

***Baki-xeber.com***

# Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması üçün ianə fondu təklifi...

**Azərbaycan Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Heydər Əliyev Fondunun elan etdiyi, Azərbaycan tarixinə "millət atası" kimi daxil olan böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı açıq heykəltəraşlıq müsabiqəsi başa çatıb. Müsabiqə ilə əlaqədar yaradılan Təşkilat Komitəsinin seçimi Azərbaycan Rəssamlar İttifaqının heykəltəraşlıq bölümünün rəhbəri, Xalq rəssamı Xanlar Əhmədov olub.**



***Vaqif Abışov:** "Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması bir ümumxalq işidir və ümumxalq sevgisini qazanan bu böyük şəxsiyyətin heykəli..."*

***Xanlar Əhmədov:** "Mən abidənin dövlət, yoxsa ümumxalq ianəsi hesabına qoyulmalı olduğu haqda heç nə deyə bilmərəm"*

Hacı Zeynalabdin Tağıyevə Bakıda ucaldılacaq abidənin müəllifi X.Əhmədovdur.

H.Z.Tağıyevin heykəlinin hazırlanması ilə bağlı açıq heykəltəraşlıq müsabiqəsinin elan edilməsi ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib, müsbət mənada sosial şəbəkələrdə müzakirə edilib. Bu böyük şəxsiyyətə abidə ucaldılması məsələsində dövlətlə ictimaiyyətin mövqeyi, baxışı üst-üstə düşüb.

Qeyd edək ki, müsabiqənin nəticələri elan edildikdən və abidənin müəllifi məlum olduqdan sonra sosial şəbəkələrdə yeni maraqlı təkliflər irəli sürülüb. Bu təkliflərdən biri Hacı Zeynalabdin Tağıyevin abidəsinin maliyyələşdirilməsinin ümumxalq ianəsi hesabına reallaşdırılması təşəbbüsüdür.

Azərbaycanın sabiq xarici işlər naziri, ölkəmizin Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri, görkəmli ədəbiyyatşünasalim, professor Vilayət Quliyev öz "Facebook" hesabında olduqca maraqlı fikirlərlə çıxış edib. "Çox dəyərli bir təşəbbüs - Bakıda məşhur xeyriyyəçi, "millət atası" Hacı Zeynalabdin Tağıyevə abidə qoyulması təklifi artıq gerçəkləşmək üzrədir.

Bu məsələ ilə bağlı çoxdan bəri üzərində düşündüyüm bir fikri "Facebook" istifadəçiləri ilə bölüşmək istərdim: dostlar, bəlkə H.Z.Tağıyevin abidəsinin ümumxalq ianəsi hesabına qoyulması ilə əlaqədar bir təşəbbüs qrupu yaradılsın?

Əlbəttə, dövlətimizin iqtisadi gücü, qüdrəti və xeyirxah iradəsi qat-qat böyük layihələri maliyyələşdirməyə imkan verir. Lakin ümumxalq istəyi və ianəsi ilə görülən hər hansı bir iş insanların ürəyindəki minnətdarlıq duyğusunun ifadəsi, milli şüurun yetkinliyi və tarixi yaddaş baxımından son dərəcə önəmlidir" - deyə qeyd edən V.Quliyev yazır ki, tarixdə belə nümunələr az deyil. O bildirir ki, "Hophopnamə"nin 1914-cü ildə çıxan ilk nəşri xalqın qəpik-qəpik, manat-manat topladığı ianələr hesabına çap olunmuşdu.

V.Quliyev, həmçinin, Moskvadakı məşhur Minin və Pojarski abidəsinin ümumxalq ianəsi ilə qoyulduğunu, hazırda isə Macarıstanda ümumxalq ianəsi əsasında hunların əfsanəvi rəhbəri Atillanın şərəfinə abidə kompleksinin tikilməsi ilə bağlı geniş ictimai müzakirələr aparıldığını bildirir. "Azərbaycanda belə ümumxalq sevgisinə layiq ictimai xadimlərin önündə, heç şübhəsiz, Hacı Zeynalabdin gəlir.

Əlbəttə, mənə deyə bilərlər ki, sənin nə vecinə, oturmusan xaricdə, valyuta ilə maaş alırsan. Amma camaatın vəziyyəti ağırdır və s.

Vaxtilə Həsən bəy Zərdabi kəndbəkənd dolaşıb məktəb üçün vəsait toplayanda könüllü şəkildə yanına gələn qoca bir suçu dolağını açıb oradan bir neçə şahı pul çıxarmış və utana-utana Həsən bəyə uzadaraq "Gümanım gələn budur" - demişdi.

Həsən bəy "Sənin verdiyin bu bir neçə şahı zənginlərin verəcəyi (əgər versələr!) yüz manatlardan daha dəyərlidir" - deyə qocanı sakitləşdirmişdi.

Yəni hərə öz imkanına, öz ürəyinə görə!

Məncə 10 milyonluq xalq (hələ xaricdəki millətsevər soydaşlarımızı demirəm) öz xeyirxahının xatirəsini bu şəkildə əbədiləşdirməyə qadir olmalıdır. Bunu bacarsaq, cəmiyyətimizi içəridən qurd kimi yeyən laqeydlik mikrobuna da ölümcül bir zərbə vurmuş olarıq.

P.S. Heykəlin təqdim olunan maketi isə, doğrusu, məni o qədər də açmadı. Məncə, məşhur rus rəssamı Brodskinin çar II Nikolay tərəfindən H.Z.Tağıyevə "həqiqi mülki müşavir" çini verilməsi münasibətilə çəkdiyi "paradnı portreti" mərmərə, yaxud gipsə köçürməyə lüzum yoxdur. Böyük xeyriyyəçinin daha xəlqi, Azərbaycan insanının ürəyinə daha çox yatan bir obrazını yaratmaq üzərində düşünmək lazımdır" - deyə V.Quliyev yazır.

Digər ziyalılar da V.Quliyevin fikrinə dəstək olaraq qeyd edirlər ki, H.Z.Tağıyevin heykəlinin ucaldılmasında imkanlı şəxslər, eləcə də, bütövlükdə, Azərbaycan ictimaiyyəti yaxından iştirak etməlidir.

Tanınmış ədəbiyyatşünas, professor Asif Rüstəmli də qeyd edir ki, bu kimi məsələlər üçün ümumxalq ianə fondunun yaradılması vaxtı yetişib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov da hesab edir ki, H.Z.Tağıyevin abidəsinin ucaldılmasında ümumxalq ianə kampaniyasının elan edilməsi çox müsbət olardı. Öz dövründə nəinki Azərbaycanda, eləcə də Rusiyada, dünyanın baş ölkələrində, o cümlədən də Müsəlman Şərqində böyük xeyriyyəçilik əməlləri ilə iz qoyan H.Z.Tağıyevin heykəlinin ucaldılmasında vətəndaşlarımız yaxından iştirak etməlidirlər. O vurğuladı ki, bir çox kasıb tələbələr Tağıyevin ianəsi hesabına oxuyub. Onun dövründə həyata keçirilən bütün ianə marafonlarında H.Z.Tağıyev yaxından iştirak edib və hamıdan çox pul verib: "Hacı Zeynalabdin Tağıyev elə bir böyük xeyriyyəçi şəxsiyyətdir ki, onu unutmaq olmaz. Azərbaycan dövlətinin Tağıyevə abidə qoyması təşəbbüsü olduqca təqdirəlayiqdir. Tağıyevin gördüyü xeyriyyə işlərinin miqyası respublikamızın hüdudlarını da aşıb. O gerçək bir millət atası idi. Deyərdim ki, Bakının yarısı onun inşa etdirdiyi binalardır. Sosial şəbəkələrdə Tağıyevin heykəlinin ümumxalq ianəsi hesabına qoyulması ilə bağlı yer alan təklif əsassız deyil. Mən də hesab edirəm ki, Hacı Zeynalabdin Tağıyevin heykəlinin qoyulmasında xalq olaraq iştirak etməliyik. Bu çox vacib məsələdir. Doğrudur, Azərbaycan dövləti Tağıyevin abidəsinin ucaldılması üçün maliyyə ayıracaq. Dövlətimizin onun və digər şəxsiyyətlərin heykəlini ucaltmaq üçün kifayət qədər imkanı var. Bu öz yerində. Amma yaxşı olardı ki, Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucaldılmasına ictimaiyyət də, imkanlı şəxslər də dəstək göstərsinlər. Bu gün Azərbaycanda imkanı olan hər bir insan bu təşəbbüsə qoşulmalıdır. Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması bir ümumxalq işidir və ümumxalq sevgisini qazanan bu böyük şəxsiyyətin heykəli ümumxalq ianəsi ilə ucaldılarsa, bu olduqca gözəl nümunə kimi tarixə düşər. Bu xalqın maarifindən tutmuş, sağlamlığına qədər elə bir məsələ yoxdur ki, orada Tağıyevin izi olmasın. Millət atasının abidəsi də millətin pulu ilə qoyulsa, bu gözəl örnək olardı" - deyə bildirən V.Abışov hesab edir ki, Azərbaycanda xeyriyyəçilik məktəbinin əsasını qoyan H.Z.Tağıyevin işıqlı əməlləri əbədi olaraq yaşayacaq.

H.Z.Tağıyevin abidəsinin müəllifi, Xalq rəssamı Xanlar Əhmədovun sözlərinə görə isə abidənin dövlət, yaxud da ümumxalq ianəsi hesabına qoyulması barədə heç bir fikir söyləyə bilməz. "Hacı Zeynalabdin Tağıyevin abidəsinin müəllifi mənəm. Müsabiqədə üç variantda çıxış etmişdim, üç əsər təqdim etmişdim. 9 nəfərdən ibarət münsiflər heyəti təqdim etdiyim üç variantdan birini seçib. Müsabiqəyə, bütövlükdə, 26 əsər təqdim olunmuşdu. Hər üç variantı da bəyənirdim. Düşünürdüm ki, üçündən biri seçilsə, çox yaxşı olardı. Onlar mənim övladlarımdır, onlar arasında seçim edə bilməzdim. Abidə bürünclə qranitin qarışığından olacaq. Amma mən abidənin dövlət, yoxsa ümumxalq ianəsi hesabına qoyulmalı olduğu haqda heç nə deyə bilmərəm. Bunu müsabiqənin təşkilatçıları bilər. Mən maliyyə məsələsinə qarışmıram, mənim bu işə müdaxiləm ola bilməz" - deyə müsahibimiz bildirdi.

***İradə SARIYEVA***

**Ali məktəblərə qəbul imtahanlarının nəticələrinin açıqlanmasından sonra tələbə adı qazananların bir qisminin sevinci uzun sürmür. Hər il olduğu kimi, bu tədris ilində də ali məktəblərin əksəriyyətinin yataqxana probleminin çözülməmiş qalması tələbələri kirayə mənzil axtarmaq məcburiyyətində qoyur.**

# Tələbə şəhərciyinin Bakının hansı hissəsində tikilməsi məqsədəuyğundur?



***Məlahət Mürşüdlü:** ”Bakıda tələbə şəhərciyi salınarsa, bu, universitetlərə yaxın ərazi olmalıdır ki, həm tələbələr gediş-gəliş sarıdan əziyyət çəkməsin, həm də nəqliyyat yüklənməsin”*

***Nüsrət İbrahimli:** ”Əhali sıxlığının az olduğu yerlərdə tələbələr üçün şəhərcik salına bilər”*

Amma bəzi valideynlərin övladları üçün kirayə ev tutmağa imkanı olmadığından, onlar aylıq qiyməti 20-60 manat arasında dəyişən mövcud universitet yataqxanalarına müraciət edirlər. Gördükləri mənzərə isə bir o qədər də ürəkaçan olmur. Bu səbəbdən də valideynlər övladlarının təhsil alması üçün kirayə mənzil axtarışına çıxırlar. Belə olan vəziyyətdə kirayə mənzillərə tələbat artdığından, qiymətlərdə də bahalaşma yaşanır. Hətta vəziyyət o yerə gəlib ki, "gecəqondu" kimi tanınan evlər "od" qiymətinədir. "Gecəqondular"da 1 otaqlı evlərin 300-350 manatarası olduğu bildirilir.

Tələbələrin təhsil haqqı, kirayə pulu, geyim, yemək və digər xərclərini hesablasaq, onların paytaxtda yaşayışını təsəvvür etmək belə çətindir. Belə olan halda isə tələbələr üçün xüsusi şəhərciyin salınması gündəmə gəlir. Məlumat üçün bildirək ki, bir sıra ölkələrdə, o cümlədən, qonşu Türkiyədə tələbə şəhərciyi mövcuddur. Beynəlxalq təcrübədə hər universitetin özünün şəhərciyi mövcuddur ki, orada həm tədris korpusları olur, həm də tələbələrin məişət və yataq problemlərini həll etmək üçün binalar tikilir. Bizdə isə hələlik bu tendensiya müşahidə edilmir, lakin ümid edirik ki, gələcəkdə bu istiqamətdə işlər görüləcək.

Ekspertlərin fikrincə, paytaxt Bakıda da belə bir təcrübəni tətbiq etmək olar. Maraqlıdır, Bakıda tələbə şəhərciyi salınarsa, paytaxtın hansı ərazisində olması münasib olar?

Təhsil eksperti Məlahət Mürşüdlü "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, tələbələrin yaşayış problemini birdəfəlik həll etmək üçün tələbə şəhərciyi salınmalıdır: "Tələbə şəhərciyi inkişaf etmiş ölkələrdə var. Həmin ölkələrdə salınan tələbə şəhərcikləri universitetlərin sıx olduğu ərazilərdə salınıb. Bizdə də analoji hal tətbiq oluna bilər. Bakıda tələbə şəhərciyi salınarsa, bu, universitetlərə yaxın ərazi olmalıdır ki, həm tələbələr gediş-gəliş sarıdan əziyyət çəkməsin, həm də nəqliyyat yüklənməsin. Nəzərə almaq lazımdır ki, ali təhsil müəssisələrinin əksəriyyəti "Elmlər Akademiyası" metrostansiyasının yaxınlığındadır. Bu ərazidə tələbə şəhərciyinin salınması üçün uyğun yer axtarılmalıdır".

Daşınmaz əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimli qeyd etdi ki, əhali sıxlığının az olduğu yerlərdə tələbələr üçün şəhərcik salına bilər. Kirayə üçün nəzərdə tutulmuş xüsusi evlərin tikintisi və tələbə şəhərciklərinin qurulmasına ehtiyac var. Dünya təcrübəsini də ölkəmiz üçün tətbiq etmək olar. Sadəcə, bunun üçün münbit şərait yaratmaq lazımdır. Xüsusilə investorlar üçün şərait qurulmalıdır ki, onlar bu sahəyə vəsait yatırmağa maraqlı olsunlar. Hələ ki, investorlar yalnız yaşayış evləri və obyektlərin tikintisi ilə məşğuldurlar.

Çünki ora qoyduqları vəsaiti qısa müddətdə artıqlaması ilə götürə bilirlər. Amma kirayə mənzil sahəsində gəlir az olduğundan, investorlar ora vəsait yatırmaq istəmirlər.

Bunun üçün icra hakimiyyətləri müəyyən ərazilər ayırmalı, həmin ərazilərin layihəsi işlənməli və müvafiq infrastruktur salınmalıdır. Bundan sonra tenderlər elan edib həmin yerə investorları cəlb etmək olar. Hələ ki, bu əlçatmazdır. Yəqin yaxın zamanda kirayə evlərlə bağlı müəyyən tədbirlər görüləcək".

***Günel CƏLİLOVA***

**Sosial şəbəkələrdə işlənmiş pamperslərin alışı adlı səhifələr yaradılıb. Həmin səhifələrdə işlənmiş bezləri atmamaq tövsiyə edilir. Bildirilir ki, onu atmaq əvəzinə toplayın və pul qarşılığında bizə satın. Uşaq bezlərinin hansı məqsədlə alındığı barədə isə məlumat yoxdur.**

# İşlənmiş pamperslərin biri 3 qəpikdən geri alınır, ekspertlər nə düşünür...



***Eyyub Hüseynov:** ”Çox güman ki, həmin bezlər təkrar istehsala yönəldilir və o üzdən, ucuz qiymətə əhalidən toplanır”*

Artıq bir neçə gündür sosial şəbəkələrdə və qadın qruplarında "İşlənmiş uşaq bezlərinin alışı" adı altında elanlar paylaşılır. Elan sahibləri xanımlara istifadə etdikləri, bulaşmış bezləri atmamağı, toplamağı, müəyyən qədər yığıldıqdan sonra onlara satmalarını təklif edirlər.

Bir bez üçün 3 qəpik təklif edən sözügedən sosial şəbəkələr yazırlar ki, belə bezləri hətta vətəndaşın yaşadığı yerdə və ya yaxın ərazidə görüşərək qəbul edir və yerindəcə pulunu ödəyirlər. Ancaq bir çox qadın işlənmiş pamperslərin yenidən emal edilib, ucuz brend altında təzədən satışa çıxacağından ehtiyat edərək, bu təklifə qarşı çıxır. Maraqlıdır ki, işlənmiş pamperslərin nəyə görə alınması barədə suallara aydın cavab verilmir. Bildirilir ki, guya bu, biznes sirridir.

Ancaq bununla bağlı təklif bir qədər iyrənc olsa da, məlumata görə, bir çox kasıb ailə işlənmiş pampersləri yığıb pul götürməkdə maraqlıdır. İşlənmiş pampers biznesi bəzi ölkələrdə olsa da, bizdə yoxdur. Ona görə də Azərbaycanda bu biznesin qanuni olub-olmaması, qaydalara nə qədər əməl edilib-edilməməsi sual altındadır.

Maraqlıdır, işlənmiş pamperslər nə məqsədlə 3 qəpikdən alınır? Ekspertlərin bununla bağlı fikirləri nədən ibarətdir?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, işlənmiş pamperslərin alınmasında müxtəlif məqsədlər ola bilər: "Konkret indidən nəyisə demək çətindir. Ona görə də bunun səbəbini ortaya çıxarmaq üçün ciddi araşdırma aparılmalıdır. Çünki bunun konkret nə məqsədlə edildiyi hələlik tam bəlli deyil. Sadəcə, bununla bağlı müəyyən ehtimallar var. Çox güman ki, həmin bezlər təkrar istehsala yönəldilir və o üzdən, ucuz qiymətə əhalidən toplanır. Ola bilər ki, həmin bezlər hansısa formada təzədən ucuz qiymətə satılır. Bunu da istisna etmək olmaz. İstənilən halda, bunda hansısa məqsəd olmasa, buna getməzlər. Ona görə də bu çox ciddi məsələ olduğuna görə araşdırılmalıdır. Bunun üstündən sükutla keçmək doğru deyil. Çünki işlənmiş bezlərin alınaraq təzədən satılması gigiyenik baxımdan normal deyil. Ona görə ki, bu, müəyyən xəstəliklərin yayılmasına səbəb ola bilər. Bu baxımdan hesab edirəm ki, məsələyə müvafiq qurumlar son dərəcə ciddi yanaşmalıdırlar. İqtisadiyyat və səhiyyə nazirlikləri bu məsələ ilə maraqlanmalıdırlar. Bundan əlavə, pampers biznesi ilə məşğul olan iş adamları da gərək bunu araşdırmaqda maraqlı olsunlar. Ona görə də buna qeyri-ciddi yanaşmaq olmaz".

*”Bu, müəyyən xəstəliklərin yayılmasına səbəb ola bilər”*

***Vidadi ORDAHALLI***

№ 159 (4057) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

10 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# Qadının kipriklərindən minlərlə gənə tapdılar



Çinin Hubey vilayətinin sakininin kipriklərində gənələr yuva salıblar. "Oxu.az" xəbər verir ki, 32 yaşlı qadın son yarım ildə gözlərinin qıcıqlanmasından və kipriklərinin tökülməsindən şikayətlənib.

Xəstəxanaya müraciət etdikdən sonra onun kipriklərində anomal sayda mikroskopik gənələr tapıblar. Həkimlərin rəyinə görə, qadın yatmazdan əvvəl üzündəki kosmetikanı tam yumayıb, yaxud elə kosmetikalı yatıb. Ölmüş dəri və kosmetika çirki gənələrin çoxalması üçün münbit şərait yaradıb. Gənələrin artımına isti hava şəraiti də təsir göstərir: bir kiprikdə 36-dək qədər həşərat yaşaya bilər.

## Sizin termik fincanınız varmı?

**Almaniyanın "Döyçe Umvelthilve" ekologiya təşkilatı tərəfindən aparılmış hesablamaların nəticələri təşviş doğurur.**

"AZƏRTAC" bildirir ki, bu təşkilatın araşdırmalarına görə, təkcə Almaniyada hər saatda təqribən 320 min kağız və plastik stəkan zibil vedrəsinə atılır. Bu, il ərzində 3 milyarda yaxın stəkanın tullanması deməkdir. Halbuki, onların istehsalı üçün 1,5 milyard litr su, 11 min ton plastik kütlə, 64 min ton oduncaq və kiçik bir şəhərin bütün il ərzində təmin edilməsi üçün kifayət edəcək qədər enerji sərf edilir. Təşkilatda vurğulayırlar ki, birdəfəlik qablar istehsalı üçün təkrar xammaldan yalnız qismən istifadə edilir. Bu halda su, enerji, oduncaq və kimyəvi maddələr məsrəfi cüzi dərəcədə azaldılıb. Ona görə də "bioloji parçalanan stəkanlar" deyilən qabları əslində, ekoloji innovasiya hesab etmək olmaz. Hətta, üzvi tullantıların tərkibində də belə qabları ayrıca çeşidləyərək yandırırlar. "Döyçe Umvelthilve" təşkilatında belə hesab edirlər ki, özü ilə aparmaq üçün sifariş edilmiş qəhvəni rahat içmək olmaz, çünki, onun ekoloji cəhətdən ziyansız olduğunu söyləmək çətindir. Təşkilatın ekspertləri vətəndaşlara təkrar istifadə üçün nəzərdə tutulan termik fincanlara üstünlük verməyi təklif edirlər.

## "Azercell" "ITU Telecom World 2019" beynəlxalq sərgisində innovativ xidmətlərini təqdim edir

**"Azercell Telekom" MMC informasiya kommunikasiya texnologiyaları sahəsindəilin ən mühüm hadisələrindən biri sayılan "ITU Telecom World 2019" beynəlxalq sərgi-konfransında iştirak edir.**

Macarıstanın paytaxtıBudapeşt şəhərində keçirilən sərgi İKT sahəsində innovasiyaların daha sürətli tətbiqi üçün mövcud imkanları nümayiş etdirir.Sərgidə ölkəmizin Milli Pavilyonu təşkil edilib. Pavilyonda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin qurumları, özəl İKT şirkətləri və startaplarla birlikdə "Azercell" şirkəti də ölkəmizi təmsil edir. Burada "Azercell" sərgi iştirakçılarını özünün yeni brend kimliyi və rəqəmsallaşma strategiyası, 4G şəbəkəsinin ölkə boyu sürətlə genişləndirilməsi sahəsində nailiyyətləri, eləcə də, biznes qurumlar və fərdi istifadəçilər üçün təqdim etdiyi geniş çeşidli innovativ xidmətləri ilə tanış edir.

Beynəlxalq Telekommunikasiya İttifaqının təşkilatçılığı ilə baş tutan beynəlxalq tədbir "Birlikdə innovasiyalar gətirərək: Əhəmiyyət kəsb edən bağlılıq" şüarı altında keçirilir. "ITU Telecom" World 2019 beynəlxalq sərgi-konfransının əsas mövzusu rəqəmsal texnologiyalar vasitəsilə insan həyatının keyfiyyətinin artırılmasını təmin etmək üçün hökumətlər və təşkilatların əməkdaşlığını artırmaqdır.

"ITU Telecom World 2019" sərgisində dünyanın müxtəlif ölkələrinin və regionlarının təqdim etdiyi İKT texnologiyaları, layihələri və məhsulları ilə tanış olmaq mümkündür. Bu sərgidəİT sahəsinin innovativ inkişaf təşəbbüsləri nümayiş etdirilir, tərəfdaşlıq və investisiya imkanları təqdim edilir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.


## Elan

Bahadurov Hüseyn Əsgər oğluna məxsus, N.Nərimanov rayonu, Əhməd bəy Ağa oğlu küçəsi, bina 7, ev 75 ünvanına aid çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Şəki Tibb Kolleci Həmkarlar İttifaqı Komitəsinə məxsus möhür itdiyindən etibarsız hesab edilir

Nəsibli Alsu Qalib qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əliyev Hikmət Ziya oğluna Bakı Mühəndislik Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Cəfərova Gülbuta Daşdəmir qızının adına, Abşeron rayonu, Qobu qəsəbəsində yerləşən torpaq sahəsinə verilmiş çıxarış (reyestr 308013067255) və torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-1278 A kod 30800076) itdiyi üçün etibarsız sayılır.

Mehdiyev Cavanşir Rəsul oğlunun adına, Azərbaycan Respublikası Hərbi Komissarlığı tərəfindən verilmiş M/V 00845 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Bağırova Naibə Kəbləağa qızının adına, Quba rayonu, Vladimirovka kəndində yerləşən fərdi yaşayış evinin (seriya RX №0105608) reyestrdən çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Bağırov Bəhram Abas oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi, ev 63, mənzil 14 ünvanının reyestrdən çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Bağırov Bəhram Abas oğlunun adına, Quba şəhəri, Ərdəbil küçəsi, dalan 6, ev 8 ünvanının (№0962467) çıxarış və texniki pasportu itdiyi üçün etibarsız sayılır.






**Qoç** - Hadisələrin verdiyi siqnallara və işarələrə fikir verin. Nəyisə dəyişmək, güzəştə getmək gərəkdir. Başqasının işlərinə görə məsuliyyəti boynunuza almayın. Müəyyən proseslərdə dönüş anıdır.



**Buğa** - Reaksiyanız sürətli olmalıdır. Münasibətlərdə yersiz intriqalar yaratmayın. Hadisələrin axarı sürətləndiyindən özünüzü itirməyin. Peşəkar fəaliyyət müstəvisində görüləsi işlərin sayı artır.



**Əkizlər** - Baş verənləri səthi dəyərləndirməyin. Problemləri araşdırın. Mənasız ittihamların təhlilinə çox vaxt ayırmayın. İnformasiya ilə zəngin vaxtdır. Yeni orientirləri müəyyənləşdirin.



**Xərçəng** - İndi və bu saat fəaliyyətə başlayın. Rəqiblərin yeni təşəbbüsləri var. Yerinizi qorumaq, mövqelərinizi gücləndirmək istəyirsinizsə, bir qədər dəyişməlisiniz. Riskli qərarlardan çəkinməyin.



**Şir** - Enerji tonusunuza fikir verin. Xroniki problemlərin həllini ertələməyin. Bu prosesin güclənməsinin qarşısını almaq üçün mütləq şəkildə aktivləşməlisiniz. Cari işlərdə geriləməyin.



**Qız** - Emosional durumun məntiqi sonucunu görəcəksiniz. Fəaliyyətinizdə köklü dəyişikliklərə lüzum yoxdur. Ötənlərdəki zəhmətiniz və səylərinizdən faydalanın. İlkin sonuclar zamanıdır.



**Tərəzi** - Qarışıq, laübalı gündür. Problemlərin həllində mənasız, izafi aktivlik işlərə ziyan vura bilər. Cari situasiyanın çərçivəsində qalın. Amma spontan olaylara dərhal reaksiya verin.



**Əqrəb** - Təmkinli olun. Yaşamın diktə etdiyi şərtləri əvvəlcədən təxminləməyə çalışın. Ehtimallarınızda yanılmayın. Hazırlaşmadığınız situasiyaya düşə bilərsiniz. Diqqətli olun ki, önəmli məsələ nəzərinizdən qaçmasın.



**Oxatan** - Yaşam fəaliyyət arealınızda təcili dəyişiklikləri, proseslərin qaydaya salınmasını tələb edir. İşlərinizlə müstəqil şəkildə məşğul olun. Bəzi məsələlərin həllini başqalarına həvalə etməyə can atmayın.



**Oğlaq** - Mürəkkəb, birmənalı olmayan gündür. Hisslərinizi nəzarət altında saxlayın. İrəliləyişi sürətləndirmək üçün aktivləşin. Müstəqil çalışın, amma bədbinliyə qapılmayın. Guşənişin olmayın.



**Dolça** - Günün ilk yarısında gərgin situasiyalar yaranacaq. Problemlər bir-birini əvəzləyir. Yaxın ətrafınızdakı insanlardan biri nüfuzu ilə sizə təzyiq göstərməyə çalışacaq. Vəziyyəti partlayış həddinə çatdırmayın.



**Balıqlar** - Planlar, istəklər, iradlar çoxdur. Fəqət, bəzi dəyişikliklərin vaxtının ötdüyünü etiraf edin. Getmiş qatarın arxasınca baxmayın. Yaşam qarşınızda təcili həll tələb edən məsələlər qoyur.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Pivə turistə 100 min dollara başa gəldi

**Böyük Britaniyada otellərin birində pivə içən turist bunun qarşılığında təxminən 100 min dollar ödəyib. "Ölkə.az"a istinadən bildirir ki, hadisə Mançesterdəki otellərdən birində baş verib.**

Avstraliyalı jurnalist Peter Lalor turist kimi yollandığı Mançesterdə əsl ingilis pivəsinin dadına baxmaq istəyib. Ancaq xidmətçi hesabı gətirərkən nəyinsə düz olmadığı anlaşılıb.

Öz "Twitter" hesabından açıqlama verən Lalor hadisəyə yumorla yanaşıb və bu pivəni tarixin ən bahalı pivəsi adlandırıb. Belə ki, gözlükləri yanında olmayan qonaq hesabdakı texniki səhvi diqqətdən qaçırıb. Kredit kartı ilə ödəniş etdikdən sonra isə onun telefonuna 55300 funt-sterlinq (təxminən 61200 avro, 99983 dollar - red.) məbləğində faktura gəlib. Bundan əlavə, Peterin hesabından komisyon haqqı olaraq 1500 avro da çıxıblar. Otelin meneceri isə baş vermiş texniki xətaya görə üzr istəyib və 10 gün ərzində ödənişin geri qaytarılacağını bildirib.

*Hazırladı: Ramil QULİYEV*


Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.